RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 170 (9049) CÜMƏ, 12 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## O.Ç.Mürsəlovun Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Orxan Çingiz oğlu Mürsəlov Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2022-ci il*



## İqtisadi yüksəlişin, dəmir iradənin təcəssümü

### İlham Əliyevin tapşırığı ilə ötən il inşasına başlanan Laçından yan keçən yeni yolun tikintisi cəmi bir ilə başa çatdı

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində əsas prioritetlərdən biri yol infrastrukturunun tikilməsidir.

Bu çərçivədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan yol infrastrukturu layihələrindən biri də Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun tikintisi idi.

Artıq yolun tikintisi yekunlaşıb. Ancaq yolun tikintisinin 3 ilə başa çatdırılması nəzərdə tutulduğu halda işlər cəmi bir ilə yekunlaşıb. Ötən ilin iyul ayında tikinti işlərinə başlanılan yolun 2022-ci ilin avqust ayında yekunlaşması əlbəttə ki, ilk növbədə Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir.

Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində bütün avtomobil yolları iri yaşayış məntəqələrindən kənar keçməklə layihələndirilir. Bu, həmin yaşayış məntəqələrində yaşayacaq əhalinin, həm də yoldan istifadə edəcək vətəndaşların rahatlığı baxımından önəmli işlərdən biridir. Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolunun inşası da məhz bu prinsip nəzərə alınaraq aparılıb.

Bu yol Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edir. Çünki bu yol hazır olduqdan sonra 10 noyabr üçtərəfli Bəyanatının müddəalarına əsasən, hazırda Laçın dəhlizində müvəqqəti yerləşən Rusiya sülhməramlı qüvvələrinin kontingenti həmin yola dislokasiya olunmalıdır.

İyunun 26-da Prezident İlham Əliyev Kəlbəcər və Laçına səfəri zamanı yolun tikintisi ilə tanış olmuş və dövlət başçısına bununla bağlı ümumi məlumat verilmişdi.

→ 2

## Region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizi reallığa çevrilir

### İşlərin 57 faizdən çoxu yerinə yetirilib

44 günlük Vətən müharibəsi yalnız 30 ilə yaxın müddətdə işğal altında olmuş ərazilərimizin azad olunması ilə bitmədi, həm də qalib tərəf olaraq Azərbaycana böyük imkanlar yaratdı. Bunlardan biri də Zəngəzur dəhlizinin açılmasıdır.

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin iyun ayının 29-da Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında çıxışı zamanı qədim Azərbaycan torpağı Zəngəzurun indi türk dünyasının birləşdiricisi rolunu oynayacağını bildirib. Zəngəzur dəhlizi yalnız Qafqaz üçün deyil, daha geniş anlamda region üçün strateji əhəmiyyətə malik olacaq.

→ 2

## Bakıətrafı kənd və qəsəbələr də paytaxtımızın imicinə layiq görkəm alır

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bu il avqustun 8-də Bakının Qaradağ rayonundakı Qızıldaş, Qobustan, Lökbatan və Sahil qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi üçün nəzərdə tutulan 5,3 milyon manat vəsaitin Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılması barədə sərəncam imzalamışdır.

Mahiyyət etibarı ilə bu, dövlət başçısının, demək olar ki, ayda bir neçə dəfə imzaladığı sərəncamlarından biridir. Amma Prezidentin rəsmi səhifəsində dərc olunan bu sərəncamları geri vərəqlədikcə onların paytaxtın bütün rayonlarını əhatə etdiyini və bir qayda olaraq, şəhərin mərkəzi ilə Bakıətrafı yaşayış məntəqələri arasında bir vəhdət, harmonik inkişaf yaratmağa səmtləndiyini görürük.

→ 5

◆ 12 Avqust Beynəlxalq Gənclər Günüdür

## Gənc nəslin yetişdirilməsi dövlətin əsas strateji hədəflərindəndir

### Azərbaycanda bu istiqamətdə aparılan siyasət bir çox ölkələr üçün nümunədir

Avqustun 12-si Beynəlxalq Gənclər Günü kimi qeyd olunur. Həmin əlamətdar gün gənclərə diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində bu aparıcı qüvvənin iştirakına təkan vermək məqsədi daşıyır.

Ölkəmizdə gənclərə yüksək diqqət və qayğı göstərilir, uğurlu gənclər siyasəti həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu bu siyasətin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi yeniyetmə və gənclərin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb. Ümummilli Lider həmişə xalqına arxalanır, onun gəncliyinə böyük ümidlər bəsləyərək dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir.

Böyük rəhbərin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələdə inkişaf etdirilir. "Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir", - deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlərin bünövrəsində gənclərin ölkənin uğurlu inkişafına istiqamətləndirilə biləcək potensialının yaradılması dayanır.

→ 3



## İslam həmrəyliyi ilk növbədə dünyaya sülh istəyini çatdırır

→ 3

## Xəzərdə perspektivli sayılan strukturlar çoxdur

### Ehtiyatları haqqında sözü isə geoloji kəşfiyyat deyir



Təbiət Xəzərin Azərbaycana məxsus sektorundakı onlarca yatağın zəngin karbohidrogenləri ilə xalqımıza böyük bir sərvət bəxş edib. Yarım əsrdən çoxdur istismar olunan və ehtiyatları hələ də tükənməyən dəniz yataqları buna aydın misaldır. Son iki-üç onillikdə hasilata başlayan "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" isə ölkəmizin iqtisadiyyatının bel sütununu təşkil edərək öz sərvəti ilə dünyaya nəhəng ixrac marşrutları açmağa imkan verib.

İşlənməkdə olan yeni yataqlardan da növbəti illərdə hasilatın başlanması gözlənilir. Bununla yanaşı, Xəzərdə perspektivli sayılan strukturlar hələ də çoxdur. Onlar neftlə, yoxsa qazla zəngindir? Ehtiyatları nə qədərdir? Bu suallara dəqiq cavabı isə geoloji kəşfiyyat verir.

bp şirkəti bu ilin birinci yarısının yekunlarına aid açıqlamasında Xəzərin Azərbaycan sektorunda həyata keçirilən digər layihələrlə yanaşı, "Şəfəq-Asiman" blokunda və Abşeron yarımadasının dayazsulu hissəsində aparılan geoloji kəşfiyyat işlərinin vəziyyəti barədə də məlumat verib.

→ 5

## Etimadı doğruldurlar

### Güləşçilərimiz ötən günü 1 qızıl, 2 gümüş və 4 bürünc medalla başa vurdular



Güləş ölkəmizdə ən populyar idman növlərindən biri olmaqla yanaşı, kütləvilik baxımından da ön sıralarda dayanır. Bu, həm tarixi-ənənəvi köklərlə, həm də bu gün ölkəmizdə idmana, o cümlədən güləşə olan münasibətlə bağlıdır. Tarixi kökü olan güləş idman növü Azərbaycanda heç vaxt ənənəsini itirməyib.

Azərbaycan güləş məktəbinin yetirmələri olan Olimpiya, dünya, Avropa çempionları iştirak etdikləri bütün yarışlarda rəqibləri üçün ən ciddi və ən çox ehtiyat edilən idmançılar sayılırlar. Yəni pəhləvanlarımız iştirak etdikləri istənilən turnirin favoritidirlər. Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında növbəti dəfə bunun şahidi olduq.

Dünən sərbəst güləş yarışlarında 61 kq çəki dərəcəsində mübarizə aparan İslam Bazarqanov əfqanıstanlı Məhəmməd Səyid Naserini 10:0 hesabı ilə məğlub edərək 1/4 finala yüksəlib. Yarımfinala gedən yolda pakistanlı Məhəmməd Bilala 3:0 hesabı ilə qalib gələn təmsilçimiz yarımfinala yüksəlib. Yarımfinalda iranlı Məcid Dastana 10:0 hesabıyla qalib gələn güləşçimiz finala adlayıb. Qızıl medal uğrunda özbəkistanlı Cahangirmirzə Turabovla güləşən islam uduzaraq islamiadanı 2-ci yerdə başa vurub.

→ 7






**QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR**
**dirçəliş yolundadır**








# İqtisadi yüksəlişin, dəmir iradənin təcəssümü

## İlham Əliyevin tapşırığı ilə ötən il inşasına başlanan Laçından yan keçən yeni yolun tikintisi cəmi bir ilə başa çatdı

*Əvvəli 1-ci səh.*

İlham Əliyev qeyd etmişdi ki, Kəlbəcər və Laçın rayonlarında 10-dan çox tunel inşa edilir. Onların arasında ən böyük tunelin uzunluğu təxminən 12 kilometrdir: "Biz bu tuneli Murov dağının altından çəkirik ki, buraya gediş-gəliş rahat olsun. Bu, həm mülki əhali üçün, həm hərbçilər üçün, həm də müdafiə nöqteyi-nəzərdən lazımdır. Hazırda bütövlükdə 10-dan çox tunel tikilir və gələcəkdə bu tunellərin sayı daha da çox ola bilər. Çünki burada hər tərəf dağlardır, meşələrdir. Qarabağ bölgəsində isə indi 10-dan çox tunel, 9 viaduk, onlarla körpü inşa edilir".

Bütün bunlar əlbəttə ki, dövlətin həm Şərqi Zəngəzurda, həm də Qarabağda ancaq yol təsərrüfatına aid olan nə qədər genişmiqyaslı işlər gördüyünü bir daha təsdiqləyir. Prezidentin də söylədiyi kimi, işğaldan azad edilən torpaqlarımızda yenidənqurmanın aparılması üçün elektrik enerjisi və yolun çəkilməsi ən əsas məsələdir. Bunlar olmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz.

Xatırladaq ki, aprelin 12-də İlham Əliyev ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə Laçın şəhərindən yan keçən yeni alternativ yolun 2022-ci ildə istifadəyə verilməsinin planlaşdırıldığını söyləmişdi: "Bu yolun da çox böyük əhəmiyyəti var və biz bunu artıq bu il istismara verməliyik. Bu il istifadəyə veriləcək yolların arasında Füzuli-Hadrut avtomobil yolu, Qubadlı-Eyvazlı kənd yolu və digər yollar var. O cümlədən Kəlbəcər və Laçın rayonlarında hərbi əhəmiyyətli yolların çəkilişi davam etdiriləcək. Tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə təkcə keçən il 700 kilometrə yaxın yollar çəkilib. Yəni Azərbaycan-Ermənistan sərhədinə qədər bu yollar çəkilib".

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan tikinti işləri artıq yekunlaşıb. Avtomobil yolunun tikintisi zamanı 7,3 milyon kubmetr həcmində qazma-tökmə işləri, 1,3 milyon kubmetr həcmində qaya partlatma işləri yerinə yetirilib, yeni yol yatağı və yol əsası inşa edilib.






Çətin relyefə malik olan ərazidən keçən yol boyunca layihəyə uyğun müxtəlif süni qurğuların tikintisi də icra edilib. Belə ki, zəruri yerlərdə beton küvetlər tikilib, 17 yerdə müxtəlif diametrli dairəvi suötürücü boru, 36 yerdə müxtəlif diametrli plastik boru quraşdırılıb, uzunluğu 149,5 metr, eni 13,5 metr təşkil edən 4 aşırımlı avtomobil körpüsü tikilib.

Daha sonra "İnşaat Norma və Qaydaları"na uyğun olaraq yol geyimi inşa edilib, asfalt-beton örtüyü döşənib, yol çiyinləri bərkidilib. Layihənin sonuncu mərhələsində yola üfüqi nişanlanma xətləri çəkilib, zəruri yerlərdə yol nişanları və mühafizə səddi (əyrixətli dəmir tirlər, monolit dəmir-beton) quraşdırılıb. Bütün inşaat işləri tərtib olunmuş qrafikə uyğun və texnoloji ardıcıllığa riayət olunmaqla həyata keçirilib.

Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolununun tikintisinə 2021-ci ilin iyul ayında başlanılıb. Yolun ümumi uzunluğu 32 km təşkil edir (bundan 10 km Ermənistan ərazisində yerləşir) və III texniki dərəcəyə uyğun inşa edilib. Yoxuşlarda 3, digər hissələrdə 2 hərəkət zolaqlı olan yolun layihə üzrə hərəkət hissəsinin eni 7-10,5 metr, torpaq yatağının eni 12-15 metr, çiyin hissələrin eni isə 2x2,5 (5 m) metr təşkil edir.

Azərbaycan dövləti heç kimdən yardım almadan Qarabağ və Şərqi Zəngəzurun yol-nəqliyyat infrastrukturunu yenidən qurur və bütün işlər sürətlə həyata keçirilir. Bu genişmiqyaslı işlərin görülməsi dövlətin gücünün, niyyətinin, iradəsinin təntənəsidir.

Dövlət başçısı iyunun 26-da Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq zamanı vurğulamışdır ki, Azərbaycan dövləti Laçını da yenidən quracaq və rayonun inşa olunan yeni yolları, tikilən Beynəlxalq Hava Limanı gələcəkdə regionun turizm potensialının tam inkişafına imkan verəcək.

Bütün bunlar ilk növbədə Azərbaycanın İkinci Qarabağ müharibəsinin qalib dövləti kimi üzərinə götürdüyü öhdəliklərin hər birini reallaşdırdığını əyani şəkildə təsdiqləyir. Ermənistanın bu prosesdə yenə də hansısa oyunlar oynaması isə sülh sazişinin imzalanmasını gecikdirir. İlham Əliyev dəfələrlə bəyan edib ki, məğlub ölkə onun irəli sürdüyü şərtləri qəbul edib və 10 noyabr üçtərəfli Bəyanatda nəzərdə tutulan öhdəliklərini yerinə yetirdiyi təqdirdə sülh sazişi imzalana bilər. Əks təqdirdə baş verə biləcək hər hansısa hadisə yalnız Ermənistanın ziyanına olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizi reallığa çevrilir

## İşlərin 57 faizdən çoxu yerinə yetirilib



*Əvvəli 1-ci səh.*

Bu isə ondan xəbər verir ki, Zəngəzur dəhlizi kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcəkdir.

Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan, uzunluğu 123,6 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib və I texniki dərəcəli olaraq beynəlxalq magistral normalara uyğun inşa olunur. Yolun ilk 77,5 kilometrlik hissəsi 6, qalan 46,1 kilometrlik hissəsi isə 4 hərəkət zolaqlıdır. Hərəkət zolaqlarına uyğun yol yatağının eni müvafiq olaraq 29,5 və 21,5 metrdir.

Layihə üzrə işlərin 57 faizdən çoxu yerinə yetirilib. Bundan əlavə, 265 dairəvi borudan 166-sı artıq tikilib, 39-da işlər davam edir; 42 düzbucaqlı borudan 18-i tikilib, 9-da işlər davam edir; 56 alt keçidin 19-u tikilib, 25-də işlər davam edir; 63 ehtiyat keçidlər üçün nəzərdə tutulmuş xidməti borulardan 28-nin inşası başa çatdırılıb, 11-də işlər davam edir; 23 körpünün 19-da hazırda tikinti-quraşdırma işləri sürətlə gedir.

Avtomobil yolunun 22-44-48-ci kilometrlik hissələrində yol geyiminin tikintisi işləri, 25,9-115-ci kilometrlik hissəsində isə qazma, dolğu və süni qurğuların tikinti işləri görülür. Yol boyu layihəyə uyğun ümumi uzunluğu 6 kilometr təşkil edən üç avtomobil tunelinin inşası aparılır. Tunellər üzrə işlərin yerinə yetirilməsi 37 faizdir.

Ortalama uzunluğu 1020 metr təşkil edən tuneldə qazma, həmçinin beton püskürtmə işləri artıq yekunlaşıb. Bundan başqa, 1007 metr uzunluğunda olan digər tunelin sol istiqaməti üzrə kəmər betonu 550 metr məsafədə, 1033 metr uzunluğunda tunelin isə sağ istiqaməti üzrə kəmər betonu 444 metr məsafədə tamamlanıb. Ortalama uzunluğu 1822 metr olan tunelin sol istiqaməti üzrə 985,5 metr, sağ istiqaməti üzrə isə 1166,35 metr məsafədə qazma və püskürtmə beton işləri yekunlaşıb. Bununla paralel ortalama uzunluğu 3170 metr olan tunelin sol istiqaməti üzrə 1398 metr, sağ istiqaməti üzrə 1433 metr məsafədə qazma və püskürtmə beton işləri başa çatdırılıb.

AAYDA-yi rəhbərliyinin nəzarəti altında "İnşaat Norma və Qaydaları"nın tələbləri çərçivəsində həyata keçirilən tikinti işlərinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi eyni zamanda Azərbaycanı regionun əsas nəqliyyat qovşaqlarından birinə çevirəcək. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də "Şərq-Qərb" nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının qatılması baxımından əhəmiyyətli olacaqdır.

Bu dəhlizin açılmasıyla ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artacaq. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsilə birləşəcək. Xatırladaq ki, Dağlıq Qarabağ münaqişəsi zamanı və bu münaqişədən əvvəl də bəzi qüvvələrin əsas məqsədlərindən biri türk dünyasında quru sərhədinin ləğv edilməsi olub. Həmin qüvvələr buna qismən nail də olmuşdular. Azərbaycandan Naxçıvana getmək üçün insanlar İran ərazisindən keçirdilər. Bəzi yükdaşımalar zamanı istər-istəməz müəyyən problemlər yaranırdı. Bu gün Zəngəzur dəhlizinin açılmasının çox böyük əhəmiyyəti var. Bu dəhlizdə tək avtomobil yolu deyil, paralel olaraq Naxçıvanla birləşən keçmiş dəmir yolu bərpa olunacaqdır. Kommunikasiyaların işə düşməsi boru və qaz kəmərlərinin açılması üçün də mühüm irəliləyişdir.

Gələcəkdə Azərbaycanla Naxçıvan arasında olan ərazi şimal-cənub və qərb istiqamətində olan bütün kommunikasiyaların məhz Naxçıvandan Türkiyəyə, oradan da Aralıq dənizi vasitəsilə digər qərb dövlətlərinə çıxmaq imkanı yaradacaq. Bu, türk dünyasının birləşməsi deməkdir. Bütün bunların fonunda dəhlizin əhəmiyyəti hər kəs üçün aydındır. Beləliklə, Zəngəzur dəhlizinin açılışı Azərbaycanın siyasi-strateji mövqeyini xeyli yüksəltməklə, onun iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artıracaqdır.

Ermənistan parlamentinin "Şərəf duyuram" fraksiyasının deputatı Tiqran Abramyan bildirir ki, "Hazırda Ermənistanda belə hesab edilir ki, Azərbaycan ilk olaraq Zəngəzur dəhlizinin açılmasına nail olacaq. Daha sonra bu yerlərə, ardınca İrəvana azərbaycanlıların qayıdışı prosesinin başlanması istisna olunmur". Erməni analitik Nijde Hovsepyanın isə açıqlamasına görə, "bütün bunlar göstərir ki, azərbaycanlıların öz tarixi yurdlarına qayıtmaq istəyi Ermənistanda təşvişə səbəb olub. Ekspertlər bildirirlər ki, 10 noyabr Bəyannaməsinin əsas maddələrindən biri Zəngəzur dəhlizi və kommunikasiyaların qarşılıqlı açılması ilə bağlıdır.

Beynəlxalq ekspertlərin fikrincə, Zəngəzur dəhlizi regionda sülhün təməl sütunlarından biri olmaqla yanaşı, bölgə dövlətləri arasında iqtisadi, ticarət əlaqələrini inkişaf etdirəcək, Ermənistanın özünün 30 ilə yaxın davam edən təcrid vəziyyətindən yaxa qurtarmasında mühüm rol oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri, bütün türk dünyasını birləşdirməklə yanaşı, Ermənistan üçün əlavə imkanlar yaradacaq. Bu, hazırda ağır sosial-iqtisadi durumda olan Ermənistana olduqca vacibdir. Məhz bu səbəbdən əngəl yaratmaq əvəzinə Zəngəzur dəhlizinin mümkün qədər tez istifadəyə verilməsində Ermənistan tərəfi daha çox maraqlı olmalıdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*





# İslam həmrəyliyi ilk növbədə dünyaya sülh istəyini çatdırır

## Azərbaycan hər zaman müsəlman dövlətləri ilə münasibətlərin inkişafına xüsusi önəm verib



İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr haqq savaşımızda daim bizim yanımızda olmuş və Azərbaycanı dəstəkləmişlər. 2020-ci ilin iyul ayında Tovuz hadisələri zamanı təşkilat bəyanat yayaraq Ermənistanın təxribatlarını pisləmişdir. Eyni zamanda Ermənistanı təxribatlarının dayandırılması ilə bağlı bəyanatlarla çıxış etmişdir. Torpaqlarımız işğaldan azad edildikdən sonra İƏT üzvlərinin həmin ərazilərə səfərləri olmuşdur. Onlar gördüklərindən dəhşətə gəlmiş, erməni cinayətlərini pisləmişlər. Bütün bunlara görədir ki, 2021-ci ildə Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd Əl-Useymini qəbul edərək onu Azərbaycan ilə İƏT arasında dost-



Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunları start götürüb. 56 ölkədən 4 mindən çox atletin qatıldığı oyunlar yalnız idman yarışları deyil, eyni zamanda islam ölkələrinin birlik nümunəsidir.

Bu oyunlar dünyaya bir daha göstərir ki, islam ölkələri hər zaman bir olmağı, bir-birini dəstəkləməyi bacarır. Bəzən islam ölkələri arasında nifaq salmaq, onları bir-birinə qarşı qaldırmaq cəhdləri olsa da, belə beynəlxalq yarışlar islam ölkələrinin bir olduğunu, lazım gəldikdə bir araya gələ bildiklərini göstərir.

Bu oyunlar 5 ildən bir keçirilməklə islam ölkələrini bir araya toplayır. Yarışlarda İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrdən idmançılar iştirak etsələr də, təşkilata üzv olan ölkələrin qeyri-müsəlman vətəndaşlarına da oyunlarda iştirak etməyə icazə verilir.

### İslam ölkələrinin həmrəyliyi və birliyi çox böyük əhəmiyyət daşıyır

Türkiyədən əvvəl, IV İslam Həmrəyliyi Oyunlarına Azərbaycan evsahibliyi etmişdi. Yarışların Bakıda keçirildiyi 2017-ci il Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə "İslam Həmrəyliyi ili" elan edilmişdi. Sərəncamda qeyd olunmuşdu ki, Azərbaycan uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olub. "İslam Həmrəyliyi ili" çərçivəsində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilib. Həmçinin Prezident İlham Əliyevin 6 dekabr 2017-ci il tarixli və 10 yanvar 2018-ci il tarixli sərəncamları ilə İƏT və Qoşulmama Hərəkatına üzv ölkələrin tələbələri üçün öz təhsillərini Azərbaycanın aparıcı ali təhsil müəssisələrində davam etdirməyə imkan yaradılıb və təqaüd ayrılıb.

Azərbaycan hər zaman islam ölkələri ilə münasibət və əlaqələrinə xüsusi önəm verib. Dövlət başçısı daim bu ölkələrə səfər edir, onlarla müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə çalışır. Prezident İlham Əliyev hər zaman çıxışlarında Azərbaycanın islam həmrəyliyinin daha da möhkəmlənməsi üçün səylərini davam etdirəcəyini bildirir. Dövlət başçısı deyir: "İslam qardaşlıq və tolerantlıq dinidir. İslam dünyası çox zəngin tarixi irsə, mədəniyyətə malikdir. Bu mədəniyyət də dünya birliyinə olduğu kimi təqdim olunmalıdır".

İlham Əliyev islam ölkələrinin daha da yaxınlaşmasına böyük ehtiyac olduğunu vurğulayaraq qeyd edir ki, müsəlman dövlətləri bir-birini dəstəkləməli, həm iqtisadi, həm siyasi sahədə daha da sıx əməkdaşlıq etməlidirlər. İstənilən islam dövləti öz iqtisadi potensialını digər müsəlman ölkəsinin xidmətinə təklif etməlidir. Daha çox islam ölkələri arasında qarşılıqlı ticarət aparılmalıdır. Xüsusən siyasi müstəvidə, BMT-də islam ölkələrinin həmrəyliyi və birliyi çox böyük əhəmiyyət daşıyır.

### İƏT-dən Ermənistana növbəti sərt bəyanat

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) da islam ölkələrini bir araya gətirən böyük təsisatdır. Azərbaycan daim İƏT fəaliyyətinə öz töhfəsini verir, eyni zamanda təşkilatın müxtəlif qurumları ilə sıx əməkdaşlıq edir. Bu qurumlar arasında ICESCO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu ilə əməkdaşlıq xüsusi yer tutur.

Bu baxımdan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti yüksək qiymətləndirilir. 2006-cı il noyabrın 23-də ICESCO-nun baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycri sivilizasiyalararası dialoq daxil olmaqla müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, islam aləmində görülən işlərə böyük dəstəyinə görə ona ICESCO-nun xoşməramlı səfiri adının verilməsi haqqında diplom təqdim edib.

Hazırda ölkəmiz İƏT-in ən fəal və nüfuzlu üzvlərindən biridir. Azərbaycan son illərdə İƏT-in bir neçə konfransına evsahibliyi edib. Azərbaycanın tədbirlərə evsahibliyi isə daim İƏT üzvləri tərəfindən yüksək qiymətləndirilib.

luq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif etmişdir.

Təşkilatın baş katibliyi bu ilin avqustun 3-də qanunsuz silahlı dəstələrin Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması nəticəsində hərbçi Anar Kazımovun həlak olmasını pisləyən bəyanat da yayıb. İƏT Ermənistanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanat üzrə öhdəliklərini yerinə yetirməyə və qanunsuz silahlı birləşmələri Azərbaycan ərazisindən çıxarmağa çağırıb. İƏT baş katibliyi azərbaycanlı şəhidin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

### İslam mədəniyyətinin carçıları

İslam Əməkdaşlıq Təşkilatı bütün hadisələrə çevik cavab verməklə daim Azərbaycanın yanında olduğunu göstərib. Bütün zirvə toplantılarında Ermənistanın 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamasını pisləyib. Hələ işğal dövründə Qarabağ problemi diqqətdə saxlanılıb, təşkilatın 1993-cü ildə Pakistanda keçirilmiş xarici işlər nazirlərinin XXI konfransında ilk dəfə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edilib.

Ümumilikdə, dünya birliyi istər İƏT, istərsə də İslam Həmrəyliyi Oyunları qismində daim islam ölkələrinin bir-birinə dəstək olduğuna şahidlik edir. Bu həmrəylik digər təşkilatlara üzvlükdə də özünü göstərir. İslam həmrəyliyi dünyaya sülhü, həqiqəti çatdırıb. Müsəlman ölkələri bu fonda islam mədəniyyətinin dünyaya tanıdılması üçün ən yaxşı vasitəçilərdir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

12 Avqust Beynəlxalq Gənclər Günüdür

# Gənc nəslin yetişdirilməsi dövlətin əsas strateji hədəflərindəndir

## Azərbaycanda bu istiqamətdə aparılan siyasət bir çox ölkələr üçün nümunədir



*Əvvəli 1-ci səh.*

### İdmana yüksək diqqət və qayğı örnəyi

Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsinə və onun kütləviliyinin artırılmasına xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda Olimpiya İdman komplekslərinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına evsahibliyi etməsi, idmançılarımızın olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında da mühüm rol oynayır.

Azərbaycan Cüdo Federasiyasının (ACF) vitse-prezidenti, olimpiya çempionu Elnur Məmmədli deyir ki, bütün uğurlarımızın təməlində dövlət başçısının diqqəti, qayğısı və ölkədə idmanın inkişafını hədəf alan siyasəti durur: "Prezidentin cüdoya olan xüsusi diqqətini hər zaman hiss etmişik və bu qayğı nəticəsində cüdo ölkənin aparıcı idman növlərindən birinə çevrilib. Heç kəsə sirr deyil ki, cənab Prezident istər olimpiadalarda, istərsə də digər beynəlxalq yarışlarda idmançılarımızın və məşqçi heyətinin yanında olub. Onlara mənəvi dəstək verib. Bu sahənin inkişafı naminə həyata keçirilən kompleks tədbirlərin nəticəsi olaraq idmançılarımız üçün gündən-günə daha yaxşı şərait yaradılır və bununla da onlar daha yüksək naliyyətlərə ruhlandırılırlar. Bu gün idmançıların məşq etməsi üçün paytaxt Bakıda və regionlarımızda hər bir şərait yaradılır, cüdo idman növünün inkişafı üçün mühüm işlər görülür. Həyata keçirilən ciddi tədbirlər sayəsində cəmiyyətdə sağlam həyat tərzi formalaşır, idmana maraq artır və daha çox gənc idmana cəlb olunur".

### Gənclərin məşğulluq məsələləri diqqətdədir

Ölkəmizdə gənclərin məşğulluğunun təmin olunması da daim diqqətdədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatıdır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır. Sosial-siyasi həyatın bütün sferalarına nəzər salsaq, orada gənclərin əksəriyyət təşkil etdiyini görərik. Bu, Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Ölkənin aparıcı qüvvəsinin hərtərəfli inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

### Dünya gəncləri bir araya gətirildi

Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri qismində təşəbbüsü ilə 2021-ci il oktyabrın 4-də təsis edilmiş Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsi əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yaradıldı. Dövlət başçısının müraciətində bildirilib ki, Azərbaycanda gənclər siyasətinə müstəsna əhəmiyyət verilir və hazırda ölkəmizdə keçirilməkdə olan bu tədbir Hərəkat ölkələrinin gəncləri arasında əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəkdir. 25 iyul 2022-ci ildə Bakıda 60-dan çox ölkənin təmsilçilərinin iştirakı ilə Qoşulmama Hərəkatının Gənclər Sammitinin keçirilməsi də bunun göstəricisidir. Tədbirin daha bir tarixi əhəmiyyəti ondan ibarətdi ki, Gənclər Şəbəkəsinin təsis olunması Qoşulmama Hərəkatının fəaliyyətinin 60-cı ildönümünə təsadüf edirdi. Gənclər Şəbəkəsinin məhz Azərbaycanın Hərəkata sədrlik etdiyi dövrə təsadüf etməsi üzv dövlətlər tərəfindən ölkəmizin bu mötəbər quruma ən böyük tarixi töhfələrindən biri hesab olunur.

Qoşulmama Hərəkatı Gənclər Sammitinin Şuşa sessiyasının iştirakçısı Yusif Cəfərbəyli bildirir ki, bu gün Azərbaycan gənci ölkədə yaradılan əlverişli mühitdən maksimum bəhrələnərək böyük fəallıq nümayiş etdirir: "Çox sevindirici və qürurverici haldır ki, düşmən işğalından azad etdiyimiz tarixi Şuşa şəhəri Azərbaycanın tərəfdaşlığı ilə keçirilən bir sıra beynəlxalq tədbirlərə evsahibliyi edir. Qoşulmama Hərəkatına üzv olan ölkələrin gənc nümayəndələri sammit çərçivəsində Qarabağda erməni vandalizminin, eyni zamanda qısa zaman ərzində görülən quruculuq işlərinin şahidi oldular. Şuşaya səfərim zamanı gördüklərim Azərbaycan gənci olaraq məni çox fərəhləndirir. Bu gün cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında, habelə idarəetmə və vətəndaş cəmiyyətinin inkişafı sahələrində gənclərimiz böyük fəallıq nümayiş etdirir və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə, iqtisadi qüdrətinin artmasına, beynəlxalq nüfuzunun daha da yüksəlməsinə öz layiqli töhfələrini verirlər".

O əlavə etdi ki, xarici ölkələrdən gələn gənc nümayəndələr Qoşulmama Hərəkatı Gənclər Sammiti vasitəsilə Azərbaycana öz dəstəklərini bildirdilər. Onlarda ölkəmiz haqqında müsbət fikirlər formalaşdı. Həmçinin Azərbaycanın sülhsevər dövlət olmasının əyani şahidi oldular.

### Tarix yazan gənclik

Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsi oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu şanlı zəfər Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Sevindirici haldır ki, gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında iştirak ediblər.

Tam inamla demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparacaq. Bu yolda gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi məhz Prezident İlham Əliyevdir. Dövlət başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin və dəstəyinin bariz nümunəsidir.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Tankçılarımız "Tank biatlonu" müsabiqəsinə hazırlıqlarını davam etdirirlər

Rusiya Federasiyasının Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində "Tank biatlonu" müsabiqəsində iştirak edəcək tankçılarımız hazırlıqlarını davam etdirir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi qulluqçularımız beynəlxalq müsabiqəyə qatılacaqları tankların texniki vəziyyətini yoxlayıb, döyüş maşınlarının ştat silahlarından yoxlama atışları icra ediblər.

Komandamızın heyəti ilə görüşən general-mayor İlqar Lətifov onlara Müdafiə Nazirliyinin rəhbərliyi adından uğurlar və yarışlarda ölkəmizi layiqincə təmsil etməyi arzulayıb.

Qeyd edək ki, "Tank biatlonu" müsabiqəsində Monqolustan komandası ilə mübarizə aparacaq tankçılarımız ilk yarışa avqustun 13-də başlayacaqlar.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib










Avqustun 11-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin videokonfrans formatında genişləndirilmiş iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda partiyanın Təftiş Komissiyasının, Veteranlar Şurasının, Gənclər Birliyinin və yerli təşkilatlarının sədrləri, YAP Mərkəzi Aparatının məsul əməkdaşları və "Yeni Azərbaycan" qəzetinin baş redaktoru iştirak ediblər.

İclasın müzakirəsinə Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi ilə əlaqədar tədbirlər planı və partiyanın fəaliyyətinə dair cari məsələlər çıxarılıb.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçdiyini, möhtəşəm nailiyyətlər qazandığını diqqətə çatdırıb. Yüksək nüfuza malik olan YAP-ın qalib xalqımızın Zəfər partiyası olduğunu və sıralarının ildən-ilə genişləndiyini bildirən Tahir Budaqov yubiley çərçivəsində həyata keçiriləcək tədbirlərin Heydər Əliyev irsinin, Prezident İlham Əliyevin siyasətinin, partiyanın 30 illik inkişaf yolunun öyrənilməsi və təbliği baxımından əhəmiyyətli olduğunu deyib.

YAP Sədrinin müavini partiyanın tədbirlər planında əks olunmuş məsələlərlə bağlı geniş məlumat verib.

Sonra YAP İdarə Heyətinin üzvləri Elmar Qasımov, Asif Əsgərov, Bayram Aslanov, Musa Quliyev və Hikmət Məmmədov tədbirlər planının yüksək səviyyədə hazırlandığını və partiyanın 30 illiyinin qeyd edilməsi ilə əlaqədar bütün zəruri məsələlərin nəzərə alındığını vurğulayıblar.

Tədbirlər planı yekdilliklə təsdiq edilib.

Sonra iclasda digər məsələlərə baxılıb.

YAP İdarə Heyətinin üzvləri Tahir Mirkişili, Elmar Qasımov, Cavid Osmanov, Bahar Muradova, Ramiz Hüseynov, Elnur Sadıqov və "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev cari məsələlərlə bağlı çıxış ediblər.

Müzakirəyə çıxarılan hər bir məsələ ilə bağlı müvafiq qərar qəbul olunub.

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini liderləri Azərbaycanda toplaşacaqlar

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə avqustun 11-də Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevlə görüşüb.





QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonağı səmimi salamlayan Şeyxülislam A.Paşazadə Azərbaycanın dostu olan Bağdad Amreyevi ölkəmizdə görməkdən çox şad olduğunu bildirib. B.Amreyevin rəhbərlik etdiyi Türk Dövlətləri Təşkilatının böyük və dəyərli işlər gördüyünü qeyd edən QMİ sədri A.Paşazadə son illər türk birliyinin güclənməsi istiqamətində atılan addımların əhəmiyyətindən danışıb. Şeyxülislam Türk Dövlətləri Təşkilatına üzv dövlətlər arasında tarixi dostluq, qardaşlıq münasibətləri zəminində inkişaf edən və dərinləşən dini-mənəvi əlaqələrdən söhbət açıb.

Azərbaycan Prezidenti İlham Əliyevin milli-mənəvi irsə qayğı və himayəsini yüksək qiymətləndirən QMİ sədri milli və mənəvi dəyərlərinə sadiq ölkəmizin ortaq tarixə malik, eyni dini-mənəvi dəyərləri bölüşən qardaş xalqların Türk Dövlətləri Təşkilatının yüksəlişi istiqamətində səylərini xüsusi qeyd edib. A.Paşazadə B.Amreyevin onu ziyarət etməsini TDT Baş katibinin İslam dininə ehtiramının təcəssümü kimi dəyərləndirib. Bildirib ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini liderləri dövlət başçılarımızın qardaş xalqlarımız naminə müştərək fəaliyyətlərinə ruhən dəstək vermək məramındadırlar və TDT ideyalarının insanların qəlblərinə, mənəviyyatına çatdırılması üçün dini-mənəvi müstəvidə səylərini əsirgəmirlər.

Söhbət əsnasında Şeyxülislam A.Paşazadə B.Amreyevin rəhbərlik etdiyi təşkilat tərəfindən 44 günlük Vətən müharibəsi günlərində Azərbaycana nümayiş etdirilmiş qardaş dəstəyinə görə minnətdarlığını ifadə edib, habelə bu yaxınlarda ölkəmizin Londondakı səfirliyinə edilmiş vandal hücumu qətiyyətlə qınadıqlarına, ölkəmizi birmənalı dəstəklədiklərinə görə türk dövlətlərinə təşəkkürlərini bildirib.

Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev Azərbaycanın, Qafqazın dini lideri ilə görüşməyi şərəf saydığını qeyd edərək, Şeyxülislam A.Paşazadənin şəxsiyyətinə və fəaliyyətinə böyük dəyər verdiyini bildirib. B. Amreyev xüsusi qeyd edib ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini liderlərinin şurasının yaradılması təşəbbüsünün müəllifi olan A.Paşazadənin bu ideyanın reallaşmasına töhfələri böyükdür. Qonaq TDT-yə üzv ölkələrin qarşıdakı noyabr zirvə görüşündən danışıb və Özbəkistanda keçiriləcək bu görüşdə nəzərdə tutulan işlər barədə məlumat verib. O, TDT-yə üzv ölkələrin müsəlman dini liderlərinin oktyabrda Azərbaycanda baş tutacaq görüşünün önəmini xüsusi vurğulayıb və bu görüşün yüksək səviyyədə gerçəkləşəcəyinə əminliyini bildirib. İslam dininin birləşdirici rolunu və qardaş türk xalqlarının birliyi üçün bu ortaq dəyərin mühüm önəm kəsb etdiyini vurğulayan B.Amreyev bu amil olmadan türk birliyinin zəifləyə biləcəyinə diqqəti çəkib.

Daha sonra TDT üzv ölkələrin müsəlman dini liderlərinin oktyabr görüşündə qəbul ediləcək sənədin detalları müzakirə olunub. Bildirilib ki, TDT çərçivəsində türk dövlətlərinin müsəlman dini liderlərinin mövcud əlaqələrinin daha da təkmilləşməsi naminə təşkilati müstəvidə yeni addımların atılması məqsədəuyğundur.

# YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çinin Azərbaycandakı səfiri ilə görüşüb

Çin Xalq Respublikasının Azərbaycandakı səfiri xanım Qo Minin təşəbbüsü ilə avqustun 11-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında səfirlə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov arasında görüş keçirilib.



Partiyadan AZƏRTAC-a bildirilib ki, görüşdə Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunub, Azərbaycan ilə Çin arasında siyasi, iqtisadi, humanitar sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb.

Xanım Qo Min Çinin Azərbaycanı dost və tərəfdaş ölkə olaraq gördüyünü, daim Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirib. O, son zamanlar Tayvan ətrafında yaranmış gərgin vəziyyətlə bağlı rəsmi Pekinin mövqeyini çatdıraraq Vahid Çin prinsipinin əhəmiyyətini vurğulayıb.

YAP Sədrinin müavini Tahir Budaqov qeyd edib ki, ərazilərinin bir hissəsi 30 ilə yaxın müddətdə işğal altında qalmış, bir milyondan artıq qaçqın və məcburi köçkün problemi ilə üzləşmiş Azərbaycan beynəlxalq hüququn təməlində dayanan suverenlik və ərazi bütövlüyü prinsiplərinə hər zaman önəm verib. Bu baxımdan Azərbaycan Çinin ərazi bütövlüyünə, Vahid Çin prinsipinə dəstəyini dəfələrlə ən yüksək səviyyədə ifadə edib və bu gün də eyni mövqedədir. Eyni zamanda Cənubi Qafqazda sülh və etimad quruculuğu məsələsindən danışan Tahir Budaqov Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın tələblərini, o cümlədən qanunsuz silahlı birləşmələrin Qarabağ bölgəsindən çıxarılması və Zəngəzur dəhlizinin reallaşdırılması ilə əlaqədar öhdəliklərini hələ də yerinə yetirmədiyini vurğulayıb. O, bununla bağlı İrəvana beynəlxalq təzyiqlərin artırılmasının vacibliyini qeyd edib, bu məsələdə Çinin də Azərbaycanın haqlı mövqeyini müdafiə edəcəyinə ümidvar olduğunu bildirib. Bundan əlavə, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərinin görüldüyünü diqqətə çatdıran YAP Mərkəzi Aparatının rəhbəri Çin şirkətlərinin bu işlərdə fəal iştirakına geniş imkanların olduğunu söyləyib.

Görüşdə Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri də müzakirə olunub.

# Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir



Azərbaycan Ordusu tərəfindən ərazidə aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən Buzdux və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklərdə mühəndis təminatı üzrə tapşırıqlar yerinə yetirilir.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və dəqiqləşdirilmiş mövqelərə təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür.

Azad edilən ərazi və hakim yüksəkliklərdə mühəndis təminatı üzrə zəruri tədbirlər davam etdirilir.

# Bu gün Xocavənd rayonunda Ermənistana məxsus "Mİ-8" helikopterinin qalıqları aşkarlanıb

Bu gün Xocavənd rayonunun Tuğ kəndi ərazisində Ermənistan Silahlı Qüvvələrinə məxsus "Mİ-8" helikopterinin qalıqları aşkar edilib.



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, aparılan araşdırmalar nəticəsində müəyyən olunub ki, həmin qalıqlar Vətən müharibəsi zamanı 2020-ci il oktyabr ayının 18-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində Azərbaycan Hərbi Hava Qüvvələrinin bölmələri tərəfindən ekipajı ilə birlikdə vurulan Ermənistan Silahlı Qüvvələrinə məxsus "Mİ-8" helikopteridir.

# Naxçıvanda Bağ Evləri yaşayış-istirahət məntəqəsinin təqdimatı olub

Şəhər və qəsəbələrdə yaşayan əhalinin istirahətinin səmərəli təşkili, yaşıllıqların artırılması, torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün bağ təsərrüfatının yaradılması və istifadəsi mühüm əhəmiyyət kəsb edir.





Bu məqsədlə Uzunoba gölü ətrafında yerləşən 20 hektar istifadəsiz torpaq sahəsi 2019-cu ildən bağ təsərrüfatı yaradılması üçün vətəndaşların istifadəsinə ayrılıb, ərazidə yeni Bağ Evləri yaşayış-istirahət məntəqəsi salınıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, avqustun 11-də Bağ Evləri yaşayış-istirahət məntəqəsinin təqdimatı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Məlumat verilib ki, bağ ərazilərinin təşkili ərazinin təbii-iqtisadi şəraiti, həmçinin mühəndis, nəqliyyat və sosial infrastrukturu nəzərə alınmaqla əlverişli hesab edilən, dövlət mülkiyyətində olan torpaq sahələri hesabına həyata keçirilir. Ərazidə nəqliyyat vasitələrinin hərəkətini asanlaşdırmaq üçün 3 kilometr asfalt yol çəkilib, 1080 metr piyada yolu salınıb. Yolun üzərində 17 su keçidi qoyulub, 180 metr su kanalı çəkilib, 2 körpü əsaslı təmir olunub. Eyni zamanda Uzunoba Su Anbarında bəndin üzərinə 1900 metr uzunluğunda asfalt örtük salınıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu işlərin görülməsində əməyi olanlara təşəkkürünü bildirib, mənzil sahiblərinin hər birinə xoş istirahət və rahat həyat arzulayıb.

Sonra Ali Məclisin Sədri yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, ayrılmış torpaq sahələrində bağ təsərrüfatlarının yaradılması məqsədilə ilkin mərhələdə 30 modultipli evin tikintisi yekunlaşdırılıb ki, onlardan 20-si iki, 10-u isə üçotaqlıdır. Hər ev üçün ayrılmış torpaq sahəsi çəpərlənib və abadlaşdırılıb, su, kanalizasiya, elektrik xətləri çəkilib və digər lazımi infrastruktur yaradılıb. Artıq ərazidə 28 ailə bağ təsərrüfatı fəaliyyəti ilə məşğul olmaq üçün ev və torpaq sahəsi ilə təmin olunub. Ailələr onlar üçün ayrılmış torpaq sahələrində yaşıllaşdırma işləri aparıb, müxtəlif meyvə ağacları, bostan və tərəvəz bitkiləri əkiblər.

Ali Məclisin Sədri ərazinin layihələndirilməsi və yeni bağ evlərinin tikilməsi, boş ərazilərdə yaşıllıqların salınması barədə tapşırıqlar verib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sənaye zonalarında istehsal olunan məhsullar 50-dən çox ölkəyə ixrac olunub

İndiyədək sənaye zonalarında 108 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan 60-ı artıq fəaliyyətə başlayıb.

İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) AZƏRTAC-a bildirilib ki, sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,4 milyard manatdan çox investisiya yatırılıb və 10 min 100-dən çox daimi iş yeri yaradılıb.

Sənaye zonaları ölkənin qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Belə ki, 2022-ci ilin I yarısında 1,3 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 14,9 faiz, qeyri-neft sənaye məhsullarının ixracında 33,1 faiz (543,9 milyon manat) olub.

## E-sosial.az portalına müraciətlərin sayı artmaqda davam edir




Təkcə son yeddi ayda portala 7 milyon 784 min 860 müraciət daxil olub.

2019-cu ildən istifadəyə verilən portal ölkənin sosial reyestri olmaqla, vətəndaşlara onlar barədə toplanmış bütün sosial məlumatlara (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat və s. üzrə) çıxış imkanı yaradır.

Hər bir şəxs onun barəsində portalda toplanmış məlumatları daimi izləmək və yaranan sosial-əmək hüquqlarının təminatına nəzarət etmək imkanına malikdir.

## Yerli investisiyalı MMC-nin e-qeydiyyatının xüsusi çəkisi 94,6 faizdir

2022-ci ilin yanvar-iyul aylarında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 94,6 faiz təşkil edib.

AZƏRTAC Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, hesabat dövründə yeni üsulla (fin kod+mobil nömrə) 1080 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət (2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 37 vahid çox) qeydiyyata alınıb.

Bu üsulun ümumi qeydiyyatda xüsusi çəkisi 12,2 faiz, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatında isə 16,2 faiz təşkil edib.

## Bakıətrafı kənd və qəsəbələr də paytaxtımızın imicinə layiq görkəm alır



*Əvvəli 1-ci səh.*

Cari il iyul ayının 28-də Prezident eyni məzmunlu sərəncamı ilə paytaxtın Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması üçün 3 milyon, iyunun 27-də isə Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə 7,5 milyon manat vəsait ayırmışdır. Bu vəsait hesabına həm yuxarıda adları çəkilən rayonların müxtəlif yaşayış məntəqələrində, həm də Sabunçu rayonunun Bakıxanov, Kürdəxanı, Maştağa, Ramana və Sabunçu qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işləri davam etdiriləcək.

Hamımız onun şahidiyik ki, Bakı unikal və nadir memarlıq abidələri ilə zənginləşərək dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmiş, milyonlarla insanın qəlbini sevindirmişdir. Bu dəbdəbəli möhtəşəm memarlıq abidələri ölkənin paytaxtında ucaldıqca dövlət başçısı eyni qayğıkeşlik və məhəbbətlə şəhərin həm daxili yollarının, həm də Bakıətrafı yaşayış məntəqələrinin simasını da dəyişməkdədir. İndi ölkənin baş şəhərini milyonlarla əcnəbi necə sevirsə, necə dünyanın ən uzaq nöqtəsindən uçub bura gəlirsə, eləcə də tədricən öz simasını dəyişən şəhərətrafı kənd və qəsəbələr daha çox insanın diqqətini özünə çəkir. Yeni turist marşrutları paytaxtın mərkəzindən Abşeron yarımadasının qədim yaşayış məskənlərinə sarı yol açır.

Artıq əsrlərdir ki, Abşeron yarımadasında 32 kənd paytaxtı üzük qaşı kimi əhatəyə alıb və onun həyatında mühüm rol oynayır. "Bakı kəndləri" ifadəsi adətən XIX əsrin sonlarında Abşeron yarımadasında gedən sənayeləşməyə qədərki yaşayış məntəqələrinə işarə etsə də, əslində, paytaxtın sözügedən ənənəvi kəndlərinin sayı həmişə 32-dən çox olub. Hələ Bakıda neft fəvvarə vurmamışdan xeyli əvvəl - 1813-cü ildə onu əhatə edən kəndlərin sayı 37 olmuşdu. Çar Rusiyasının 1850-ci ilin dövlət sənədlərində isə bu rəqəm 40-a çatmışdı. Sonralar onların üzərinə Göradil, Ləş, Şüvəlan və Pirəküşkül kəndləri də əlavə olunmuşdur. Artıq 2018-ci il statistikasında Bakı şəhəri inzibati ərazisi daxilində 59 qəsəbənin olduğu göstərilir. Ümumiyyətlə, Bakıətrafı kəndlərin qədim, maraqlı və zəngin tarixinin, unikal memarlıq abidələrinin qorunub saxlanılması, yolların bərpa edilməsi bütünlükdə Abşeron yarımadasının tarixini bərpa edir, ona möhtəşəm bir gözəllik bəxş edir.

Bu ona görə belədir ki, Prezident İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən Bakının və onun ətraf kəndlərinin abadlaşmasını, yol infrastrukurunun yenilənməsini və memarlıq abidələrinin bərpasını qarşıya məqsəd kimi qoymuşdur. Dövlət başçısı İlham Əliyev təkcə Bakının, onun kənd və qəsəbələrinin simasını dəyişməmişdir. Prezident apardığı islahatlarla, Azərbaycan Ordusu ilə birlikdə düşmən üzərində qazandığı möhtəşəm qələbə ilə ölkədə hər bir insanın şüurunu da dəyişmişdir. Biz artıq 30 illik işğalın mənəvi əzablarından sarsılan xalq deyilik. Düşmənlərimizin və bütün dünyanın təsəvvür etdiyindən daha qüdrətli və daha möhtəşəm xalqıq. Dövlət başçısının istənilən sahədə həyata keçirdiyi islahatlar, nəhəng quruculuq işləri bir tərəfdən sırf iqtisadi islahatlara köklənsə də, digər tərəfdən dövlətçilik ənənələrinin güclənməsinə, milli mənəvi dəyərlərin və milli özünüdərkin yeni məzmunda qavranılmasına xidmət edir.

Təxminən 10 il əvvəl tələbəlik dostum, "İzvestiya" qəzetinin keçmiş baş redaktoru Vitali Abramov Rusiyanın məşhur jurnalistlərinin nümayəndə heyətinin tərkibində Prezident İlham Əliyevlə görüşə gəlmişdi. Onunla işlərini başa vurduqdan sonra axşam tərəfi görüşdük, gecə yarısınadək şəhəri gəzdik, dənizkənarı bulvarı dolaşdıq, hətta şəhərdən kənara baş çəkdik. Qəribə bir söz dedi: "Mən dünyanı çox gəzmişəm, sizdən neftlə daha zəngin olan ölkələr görmüşəm. Amma orada neft pulları hiss olunmur. Sizin ölkədə hayana getsən orada neft pulları görünür. Ucaltdığınız abidələr, binalar, saldığınız yollar sabah sizin imicinizə, nüfuzunuza işləyəcək".

Aradan 10 ildən artıq vaxt keçib. Zaman bizim xeyrimizə işləyir. Biz fərqli və əsrarəngiz bir ölkənin vətəndaşlarıyıq. Paytaxtımıza gəldikdə, onun gələcəyi ilə bağlı Prezident hələ 2019-cu ildə belə demişdi: "...şəhərin hər bir yeri bizim üçün əzizdir. Bakı şəhəri təkcə mərkəzdən ibarət deyil. Biz şəhərin infrastrukturunu ilk növbədə vətəndaşlar, ondan sonra turistlər, xarici qonaqlar üçün yaradırıq".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Xəzərdə perspektivli sayılan strukturlar çoxdur



## Ehtiyatları haqqında sözü isə geoloji kəşfiyyat deyir

*Əvvəli 1-ci səh.*

"Şəfəq-Asiman" bloku Bakıdan cənub-şərq istiqamətində təxminən 125 kilometr məsafədə yerləşir. Blok 1100 kvadratkilometrə yaxın sahəni əhatə edir və onun ərazisində suyun dərinliyi 650-800 metr arasında dəyişir. "Şəfəq-Asiman" strukturunu "Şahdəniz" yatağından 60 kilometr və Səngəçal terminalından 145 kilometr məsafə ayırır.

"Şəfəq-Asiman" strukturu 1961-ci ildə aparılmış seysmik kəşfiyyat vasitəsilə aşkar olunub. 2010-cu ilin oktyabr ayında Bakıda bp və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında blokun birgə kəşfiyyatı və işlənməsi üçün HPBS (Hasilatın Pay Bölgüsü Sazişi) imzalanıb. Saziş Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2011-ci ildə ratifikasiya edilib. Sənədə əsasən, bu şirkətlər layihədə iştirak paylarını tən yarıya bölürlər, operator bp-dir. HPBS-nin müddəti 30 il müəyyən edilib.

2012-ci ildə "Şəfəq-Asiman"da üçölçülü seysmik tədqiqat işləri yerinə yetirilib. Seysmik məlumatların interpretasiyası 2015-ci ildə tamamlanıb. Əldə edilmiş məlumatların emalı və interpretasiyası əsasında tərəfdaşlar strukturda ilk kəşfiyyat quyusunun yerini müəyyənləşdirib və 2020-ci ildə onun qazılmasına başlayıblar.

2021-ci ilin mart ayında blokda ilk kəşfiyyat quyusunun qazılması Fasilə lay dəstində 7189 metr dərinlikdə tamamlanıb. Quyunun keçdiyi lay dəstlərində qaz-kondensat ehtiyatları aşkar edilib. Operator şirkət bildirir ki, hazırda ilkin seysmik məlumatların emalı da daxil olmaqla qazma zamanı quyudan əldə edilmiş məlumatların təhlili aparılır. Bundan sonra nəticələrin interpretasiyası həyata keçiriləcək. Bu təhlil karbohidrogen kəşfini dəyərləndirməyə və kəşfiyyat işlərinin növbəti mərhələsini planlaşdırmağa imkan verəcək.

Abşeron yarımadasının dayazsulu hissəsinin potensial perspektiv strukturlardan biri olduğu güman edilirdi. 2014-cü il dekabrın 22-də bp və SOCAR arasında bu strukturda birgə geoloji kəşfiyyat işlərinin aparılması və hasilatın pay bölgüsü haqqında saziş imzalandı. Bundan bir neçə ay sonra saziş Milli Məclis tərəfindən ratifikasiya edildi. bp Abşeron yarımadasının dayazsulu hissəsi layihəsinin operatoru və HPBS-də 25 faiz paya malik idi. Digər tərəfdaşlar isə bunlar idi: SOCAR-50 faiz və LUKOİL-25 faiz. Müqavilə sahəsi Xəzər hövzəsinin hüdudları boyunca Abşeron yarımadasının cənubuna doğru uzanırdı. Bu ərazidə suyun dərinliyi 40 metrədək dəyişir.

HPBS Milli Məclis tərəfindən ratifikasiya olunduqdan dərhal sonra müqavilə sahəsində üçölçülü seysmik tədqiqat proqramının həyata keçirilməsi üçün hazırlıq işlərinə başlandı. 2015-ci ilin dekabr ayında ikiölçülü seysmik tədqiqat proqramı təhlükəsiz şəkildə sona çatdırıldı.

Üçölçülü seysmik tədqiqat proqramı üzrə ƏMSSTQ sənədinin ictimai müzakirələri aparıldı. Üçölçülü seysmik tədqiqat proqramı 2016-cı il mayın 31-də başlandı və dekabrın 27-də müvəffəqiyyətlə yekunlaşdı. Bu tədqiqat 1300 kvadratkilometr ərazidən üçölçülü məlumatın əldə olunmasını əhatə etdi. Tədqiqat proqramı bp-nin qabaqcıl, patentləşdirilmiş Müstəqil Sinxron Mənbələr (Independent Simultaneous Source with Nodes-ISSNtm) texnologiyası vasitəsilə həyata keçirildi.

Üçölçülü məlumatların interpretasiyası və emalı 2017-ci ilin dördüncü rübündə sona çatdı. Beləliklə də SOCAR-la perspektivlik haqqında bildiriş imzalanmaqla bp-nin Abşeron yarımadasının dayazsulu hissəsində üç perspektiv ərazidə kəşfiyyat quyuları qazmaq öhdəliyi müəyyən edildi. Eləcə də quyuların qazılacağı yerlər müəyyənləşdirildi.

Şimal Xali sahəsində "Sətti" özüqalxan qazma qurğusu ilkin layihə və plana uyğun olaraq qazma əməliyyatlarını başa çatdırdı və quyu bağlandı. Bundan sonra qurğu ikinci geoloji kəşfiyyat quyusunu qazmaq üçün Bibiheybət perspektiv sahəsinə keçirildi. Qazma müqavilə sahəsinin qərb perspektiv hissəsində, sahildən təqribən 1,5 kilometr aralıda, suyun dərinliyinin 7 metr yaxın olduğu ərazidə aparıldı.

bp-nin cari ilin birinci yarısının yekunlarına həsr olunmuş hesabatında bildirilir ki, Abşeron yarımadasının dayazsulu hissəsi layihəsi çərçivəsində üçüncü geoloji kəşfiyyat quyusu - QBDX01-in bu il mayın 25-də təhlükəsiz şəkildə bağlanıb və daimi tərk edilib. Belə ki, saziş sahəsinin cənub-şərq hissəsində yerləşən Qarabatdağ ərazisində qazılmış bu quyuda iqtisadi cəhətdən səmərəli karbohidrogen ehtiyatları aşkarlanmayıb. Layihə çərçivəsində Şimal Xalı sahəsində qazılmış birinci quyunun 2021-ci ilin dekabrında, Bibiheybət sahəsində qazılmış ikinci quyunun isə bu ilin mart ayının ortalarında tərk edildiyi diqqətə çatdırılıb. QBDX01 quyusu Abşeron yarımadasının dayazsulu hissəsinin kəşfiyyat qazma proqramı üçün planlaşdırılmış fəaliyyətlərin sonuncu mərhələsi olduğundan "Sətti" özüqalxan qazma qurğusu bu layihədə iştirakını bitirib.

Xatırladaq ki, "Sətti" qurğusu Qazaxıstan "KMG Drilling and Services" MMT-yə məxsusdur. 2019-cu ilin yanvar ayında SOCAR və "KazMunayGaz" arasında imzalanmış memoranduma, eləcə də həmin ilin fevralında "Kaspian Drilinq Kompani Limited" (KDK) MMC və "KMG Drilling and Services" MMT arasında bağlanmış müqaviləyə əsasən, qurğu KDK-nin etibarlı idarəetməsinə verilib.

"Sətti"nin təkmilləşdirilməsi Bakıda, KDK-də həyata keçirilib. Gələcəkdə bu qurğunun Xəzər dənizi akvatoriyasında digər əməliyyatlarda da iştirak edəcəyi nəzərdə tutulub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## AİŞ və "Balxurma" MMC arasında investisiya müqaviləsi imzalanıb

### Müqavilədə 100-dək yeni iş yerinin açılması nəzərdə tutulur



"Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) ilə "Balxurma" MMC arasında investisiya müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, AİŞ tərəfindən "Balxurma" MMC-yə meyvə qurutma xətti üzrə istehsal həcminin artırılması üçün 4 milyon manat investisiya yatırılması planlaşdırılır.

Bu investisiya qoyuluşundan sonra müəssisənin istehsal gücünün illik 200 tondan 600 tona yüksəlməsi gözlənilir. Ümumi dəyəri 16 milyon manat olan layihədə AİŞ-in payı 25 faiz təşkil edəcək ki, bunun əsasında orta hesabla 100-dək yeni iş yerinin açılması nəzərdə tutulur.

Balakən rayonunda yerləşən, "Balkhoorma" brendi ilə tanınan Quru meyvələrin istehsalı zavodu 2016-cı ildən fəaliyyət göstərir. "Balxurma" MMC-yə məxsus zavod İtaliya, Koreya və Türkiyə istehsalı olan texniki avadanlıqlarla təchiz olunub. Müəssisənin nəzdində müasir standartlara cavab verən yuyulma, soyulma, soyutma və qablaşdırma kimi istehsal xətləri mövcuddur. İstehsal olunan məhsullar yerli bazarda satılmaqla yanaşı, "Made in Azerbaijan" brendi ilə Almaniya, Niderland, Litva, Belarus, Rusiya, Ukrayna, Malayziya, BƏƏ və Yaponiyaya ixrac olunur.

## Şəhid uşaqları üçün yay düşərgəsində keçən günlər rəngarəng tədbirlərlə yaddaşlara yazılır



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial sifarişi və dəstəyi ilə "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən şəhid uşaqları üçün təşkil edilən növbəti yay istirahət düşərgəsi davam edir.

Düşərgənin növbəti günündə şəhid övladları üçün Quba rayonunun Qəçreş qəsəbəsinə ekskursiya təşkil edilib. Burada iştirakçılara təbiət qoynunda maraqlı, əyləncəli istirahət keçirmək imkanı yaradılıb. Sonra peşəkar psixoloqun iştirakı ilə uşaqlar üçün "Həyat dəyərləri" adlı treyninq, valideynlər üçün "Böhran vəziyyətində ilkin psixoloji yardım" adlı təlimlər təşkil olunub.

Uşaqlar hovuzda su idman növləri ilə məşğul olmaqla bərabər müxtəlif əyləncəli oyunlarda iştirak ediblər. Yay düşərgəsi yaddaqalan anlarla davam edir.

Xatırladaq ki, layihə ölkəmizin müxtəlif bölgələri üzrə 100-dək şəhid uşağını (valideynləri ilə birgə 140 nəfəri) əhatə edir.

# Kənd təsərrüfatının davamlı inkişafı elmi əsaslara söykənməlidir

Qlobal problemlərin, o cümlədən iqlim dəyişikliklərinin kəskinləşdiyi, təbiətə antropogen təsirlərin intensivləşdiyi, ərzaq və şirin su qıtlığı təhlükəsinin Damokl qılıncı kimi dünyanın başı üzərindən asıldığı bir dövrdə Azərbaycanda qeyri-neft sektorunun prioritet sahəsi olan və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı, ərzaq və qida təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Ölkədə kənd təsərrüfatının və aqrar-sənaye kompleksinin modernləşdirilməsinin təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və onun Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə bu sahələrə xüsusi diqqət göstərilmişdir. Təsadüfi deyildir ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi həmin dövrdə bu istiqamətdə gördüyü işlərin, atdığı addımların hər biri mühüm hadisə kimi respublikamızın dövlətçilik tarixinə yazılmışdır.

Ulu Öndərin strateji xəttini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin müxtəlif tədbirlərdə etdiyi çıxışlarda, verdiyi fərman və sərəncamlarda müasir texnologiyaların tətbiqi ilə ənənəvi və qeyri-ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafının stimullaşdırılması, müxtəlif bitki məhsulları, xüsusilə taxıl üzrə idxaldan asılılığın azaldılması, bunun üçün isə məhsuldarlığın və keyfiyyətin yüksəldilməsi, hər bir regionun təbii xüsusiyyəti və torpaq-iqlim şəraiti nəzərə alınmaqla ixtisaslaşmanın aparılması, dünya standartlarına uyğun kənd təsərrüfatı və ərzaq məhsulları bazarının formalaşdırılması, torpaq və su ehtiyatlarının səmərəli idarə olunması, kənd təsərrüfatının elektronlaşdırılması, yerlərdə loqistika problemlərinin həlli kimi məsələlər bütün kəskinliyi ilə qoyulmuş, ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunması milli hədəflərdən biri kimi müəyyənləşdirilmişdir.

Bu sahələrə Prezident cari ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədəki çıxışında da geniş yer vermişdir. Dövlət başçısı çıxışında dünyada ərzaq qıtlığı və inflyasiya problemlərinin yaşandığı indiki dövrdə Azərbaycanın özünü ərzaqlıq buğda ilə ən azı 70-75 faiz təmin etməsini vəzifə olaraq qarşıya qoymuşdur. Bu vəzifənin icrası üçün isə müasir metodların tətbiqi ilə yüksək məhsuldar və keyfiyyətli, stres amillərinin təsirinə davamlı buğda sortları yaradılmalı, suvarma suyu, suvarma sistemləri, gübrələr və bu kimi digər məsələlərin həllinin axtarışı, torpaqlardan istifadənin səmərəliliyinin artırılması üzrə tədqiqatlar intensivləşdirilməlidir.

Prezident dəfələrlə bəyan etmişdir ki, "hazırda qarşıda duran ən başlıca məqsəd daxili imkanlar hesabına kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminata və davamlı inkişafa nail olmaqla, Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdır". İnamla qeyd edə bilərik ki, həm ölkədə mövcud olan elmi-texniki və texnoloji potensial, həm normativ-hüquqi baza, həm bioloji, iqlim, su və torpaq resursları, həm də dövlət başçısının iradəsi və göstərişləri ilə həyata keçirilən elmi əsaslı institusional islahatlar, tətbiq edilən siyasi, iqtisadi, sosial və s. texnologiyalar, elmi cəhətdən əsaslandırılmış çoxsaylı dövlət proqramlarının uğurla həyata keçirilməsi bu strategiyanın reallaşdırılmasına, qeyd edilən yüksək hədəflərin əldə edilməsinə, əhalinin rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına tam təminat verir.

Bu baxımdan kənd təsərrüfatı məhsulları ilə təminat sahəsində problemlərə kompleks və məqsədyönlü yanaşma, istehsal sisteminin inkişafına, şirkətlərə və fermerlərə dövlətin real dəstəyinin təmin olunması istiqamətində atılan addımlar sırasında Prezidentin "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 19 iyul 2022-ci il tarixli fərmanı növbəti mühüm addım kimi xüsusi qeyd edilməlidir. Fərmanda göstərilir ki, son dövrlər ölkədə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla taxılçılıq təsərrüfatlarının yaradılması, həmçinin uzun illər ərzində işğal altında qalan torpaqların azad olunması ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin daha da artırılması məqsədilə yeni hədəflərin müəyyən edilməsinə imkan verir.

Yeni beynəlxalq münasibətlər və qlobal problemlərin güclənməsi şəraitində dünyanın ərzaq bazarında baş verən proseslər nəzərə alınmaqla Azərbaycanda mövcud resursları səfərbər etməyə imkan verən yeni tənzimləmə mexanizmlərinin yaradılması hesabına ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, habelə məhsulun keyfiyyətinin artırılmasına nail olunması fərmanın əsas məqsədlərindəndir. Fərman milli kənd təsərrüfatı istehsalı sisteminin dinamik və proporsional inkişafı üçün yeni dəstək tədbirlərinin planlaşdırılması, təşkili və əlaqələndirilməsinin mühüm istiqamətlərini əhatə edir.

Sözsüz ki, bu mühüm sənədin icrası nəticəsində ərzaqlıq buğda üzrə ölkənin idxaldan asılılığının müəyyən dərəcədə azaldılması mümkün olacaqdır. Bununla yanaşı, dövlət başçısı tərəfindən dəqiq müəyyənləşdirilmiş yüksək məqsədlər baxımından ölkədə biologiya və aqrar elmlər qarşısında ən qısa zamanda həlli vacib olan bir sıra problemlər qalmaqda davam edir. Ölkə üçün həyati əhəmiyyət daşıyan bu problemlərin uzunmüddətli, davamlı və dayanıqlı həllinə nail olmaq üçün isə ilk növbədə Azərbaycanda kənd təsərrüfatının və aqrar elmin mövcud vəziyyətinin real qiymətləndirilməsi istiqamətində lazımi təhlillər aparılmalı, dünyanın qabaqcıl ölkələrinin təcrübəsi daha geniş və əhatəli şəkildə öyrənilməlidir. Daha sonra nəzəri-fundamental və tətbiqi-innovativ tədqiqatların optimal strukturu, orta və uzunmüddətli prioritetləri və inkişaf perspektivləri, onların reallaşdırılması üçün müvafiq elm və təhsil müəssisələrinin əsas vəzifələri müəyyənləşdirilməli, idarəetmə və koordinasiya sisteminin konturları yenidən işlənilməlidir.

Son illər Azərbaycanda aqrar sahə ilə bağlı elmi-tədqiqat sisteminin modernləşdirilməsi istiqamətində bir sıra tədbirlər görülsə də, tədqiqat müəssisələrinin maddi-texniki və elmi potensialının yüksəldilməsi, kadr resursları və informasiyanın dünya standartları səviyyəsinə qaldırılması hələ də günümüzün tələbləri baxımından problem olaraq qalır. Bu məsələ xüsusilə elmi potensial baxımından ciddi şəkildə özünü göstərir. Məlumdur ki, ölkədə mövcud olan bir sıra tədqiqat və təhsil müəssisələri geniş modernləşdirmə prosesinə cəlb edilmiş, bina və qurğuları yenidən qurularaq müasir avadanlıq və cihazlarla təmin olnmuşdur. Lakin kadr potensialının zəifliyi onlardan istifadənin səmərəliliyini çox aşağı səviyyədə saxlayır.

Bu gün Azərbaycanın ərazisinin 4,5 milyon hektarını təşkil edən kənd təsərrüfatı təyinatlı torpaq sahələri insanın səriştəsiz fəaliyyəti, meliorasiya qurğularının mənəvi və fiziki cəhətdən köhnəlməsi nəticəsində müxtəlif dərəcədə erroziyaya, şorlaşmaya və şorakətləşməyə uğramışdır. Hələ də suvarma sularından və ümumən, şirin su mənbələrindən səmərəsiz istifadə olunur, ölkə ərazisində əsasən xaricdən gətirilən bir sıra hallarda mənşəyi şübhəli olan bitki sortlarının və F1 hibridlərinin toxum və digər əkin materialları becərilir. Kifayət qədər ciddi xarakter daşıyan bu və digər aktual problemlərin əsaslı həllinə olan böyük ehtiyac isə proseslərdə elmin iştirakını, o cümlədən kənd təsərrüfatının və aqrar elmin idarəçilik sisteminə yenidən baxılaraq onun optimallaşdırılmasını, ən müasir yanaşmalar və metodikalarla fundamental və innovativ-tətbiqi elmi araşdırmaların dərinləşdirilməsini, dəyişən mühitə davamlı, yüksək məhsuldar və keyfiyyətli, biotik və abiotik stres amillərinin təsirinə davamlı bitki sortları və heyvan cinslərinin, mütərəqqi torpaqyaxşılaşdırma, suvarma, becərmə və inteqrir bitki mühafizəsi texnologiyalarının transferi, öyrənilməsi, yaradılması və tətbiqini, bioloji, iqlim, torpaq, su və s. resurslardan səmərəli istifadənin elmi əsaslarının işlənib hazırlanması və daim təkmilləşdirilməsini, ümumən, aqrar sahənin elmi təminatının dünya standartları səviyyəsinə çatdırılması istiqamətində modernləşdirilməsini, elmi-təşkilati, elmi-texniki, metodoloji, hüquqi və s. addımların atılmasını tələb edir.

Mandatları aqrar sahənin problemlərinə istiqamətlənmiş tədqiqat müəssisələri dövlətin və özəl sektorun sifarişləri əsasında dövrün yüksək tələblərinə cavab verən elmi mövzular, proqramlar üzrə iş aparmalıdır, real nəticələrin əldə edilməsi üçün isə bu mövzular adekvat maliyyə resursları, maddi-texniki və texnoloji baza ilə təmin edilməli, kadr hazırlığı gələcək ehtiyaclar da nəzərə alınmaqla gücləndirilməli, yüksəkixtisaslı, müasir biliklərə və dünyagörüşünə yiyələnmiş gənc alimlərin karyera inkişafı stimullaşdırılmalıdır. Bu mənada elm, təhsil və istehsalatın effektiv inteqrasiyasına nail olunması, ali və orta ixtisas təhsili müəssisələrinin, elm mərkəzlərinin modernləşdirilməsi, ali və doktorantura təhsilinin səviyyəsinin mütəxəssislərə olan ehtiyacların strateji baxımdan dəqiq müəyyənləşdirilməsi ilə dövrün tələblərinə uyğun yüksəldilməsi vacibdir. Bu gün həm dərin nəzəri, həm də tədris-elm-təcrübə, tədqiqat-tətbiq-yayım zəncirlərinin bütün halqalarına uyğun biliklərə, tədqiqatçı bacarıqlarına, konkret ixtisaslar üzrə texniki vərdişlərə yaxşı yiyələnmiş kadrlara böyük ehtiyac vardır. Bu kadrların həmçinin layihə idarəetməsi, kompüter texnologiyaları, xarici dillər üzrə də lazımi səviyyədə bilik və bacarıqları olmalıdır.

Müvafiq sahələr üzrə güclü kadr, texniki və texnoloji potensialın yaradılması və bununla da 4-cü sənaye inqilabının nailiyyətlərini ehtiva edən ən müasir avadanlıq və toxuma kulturası metodikalarının istifadəsi ilə gen redaktəsi, molekulyar seleksiya, molekulyar biotexnologiya, genom və postgenom, nano, bio və rəqəmsal texnologiyaların tətbiqi üzrə tədqiqatların aparılması və nəticələrinin tətbiqi üçün nə mümkünsə edilməlidir.

Kənd təsərrüfatı istehsalı ilə bağlı elə biznes modeli işlənib hazırlanmalıdır ki, onun metodiki vasitələri texnologiyaların və sortların sahibi olan elmi-tədqiqat institutlarını, toxumçuluq şirkətlərini, məhsul istehsalçılarını və istehlakçıları vahid zəncirdə əhatə etməklə elm və biznes arasında əməkdaşlığın təsərrüfatlara təsirlərini təsvir etməyə və qiymətləndirməyə, boşluqları aşkar edərək aradan qaldırmağa imkan yaratsın.

Bütün bunları həyata keçirmək üçün dünyanın əksər inkişaf etmiş ölkələrində mövcud olan "elm holdinqləri" modelləri təcrübəsindən yararlanmaq mümkündür. Kənd təsərrüfatının gələcəyi iri kənd təsərrüfatı müəssisələrinin və şaquli inteqrasiya olunmuş aqrar-sənaye təşkilatlarının formalaşmasını və inteqrasiyalı fəaliyyətini tələb edir. Bu prosesə həm müvafiq ali təhsil ocaqları, həm elmi müəssisələr, həm də iri kənd təsərrüfatı şirkətləri cəlb edilməli, onların funksional baxımdan yaxınlaşaraq birgə fəaliyyət göstərməsi stimullaşdırılmalı, qüvvələrin birləşdirilməsinə münbit şərait yaradılmalıdır.

Deyə bilərik ki, Prezident İlham Əliyevin Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı verdiyi fərman və sərəncamların səmərəli icrasına nail olunması üçün müvafiq elm və təhsil sahələrində düşünülmüş struktur, optimal idarəetmə və əlaqələndirmə islahatlarının aparılması və ya davam etdirilməsi, inteqrasiya proseslərinin gücləndirilməsi, əlaqədar biologiya və aqrar elmlərin innovasiya potensialının gerçəkləşdirilməsi, prioritet tədqiqat istiqamətləri üzrə baza, proqram-məqsədli və müsabiqəli maliyyələşdirmənin optimal mexanizmlərinin tapılması və tətbiqi mühüm rol oynaya bilər. Bu baxımdan "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Prezidentin 28 iyul 2022-ci il tarixli Fərmanı digər elm sahələrində olduğu kimi, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd təsərrüfatı məhsulları idxalından asılılığın azaldılmasına istiqamətlənmiş elm sahələrinin də inkişafına real töhfələr verə biləcək irəliyə doğru atılmış inqilabi addımdır.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***

## BİLDİRİŞ

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Tikinti-Təchizat Birliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti "Azərbaycan" qəzetinin 24.06.2022-ci il tarixli 132 (9011) sayında dərc edilmiş elanla əlaqədar bildirir ki, keçirilmiş təkliflər sorğusunun nəticələri üzrə 5 avqust 2022-ci il tarixdə "4Maps Bilgi Teknolojileri" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 2005748811) ilə "Rəqəmsal xəritə əsaslı platformanın yaradılması işlərinin görülməsi"nin satın alınmasına dair 3 729 561,10 manat məbləğində satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Azərbaycanın Rus İcması rusiyalı hərbi ekspert Frans Klintseviçə etirazını bildirib

Azərbaycanın Rus İcması rusiyalı hərbi ekspert, ehtiyatda olan polkovnik Frans Adamoviç Klintseviçə açıq məktub göndərib və məktubda onun "Rusarminfo" kanalına müsahibəsi ilə əlaqədar etirazını bildirib. AZƏRTAC xəbər verir ki, məktubda deyilir:

"Hörmətli cənab Klintseviç!

Biz Rusiya telekanallarında, müxtəlif analitik proqramlarda sizin şərhlərinizə tez-tez baxırıq. Siz dünyada baş verən bir çox hadisələrə hərbi ekspert kimi prinsipial qiymətlər verirsiniz, lakin sizin yutub kanalında yayılan, "Rusarminfo" kanalına verdiyiniz sonuncu müsahibə sizin obyektiv, bilikli, sağlam düşüncəli hərbi siyasi ekspert olmağınız barədə fikirlərin üstündən xətt çəkdi.

Siz ya Ermənistan-Azərbaycan münaqişəsinin tarixini və onun nəticələrini əsla bilmirsiniz, ya da bilərəkdən, erməni kütləvi informasiya vasitələrinə yarınmaq, onların nəzərində "həqiqət və ədalət uğrunda mübariz" kimi görünmək üçün həqiqəti təhrif edirsiniz.

Yəqin ki, sizə xatırlatmaq artıq olmaz, Azərbaycan 30 il ərzində erməni silahlı dəstələri tərəfindən işğal edilmiş öz əzəli torpaqlarını dinc yolla azad etmək üçün hər cür səy göstərib. Onu da xatırladaq ki, dünyanın istisnasız olaraq bütün ölkələri, o cümlədən Rusiya Federasiyası da Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Bütün bu illər ərzində Ermənistan BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş və Azərbaycanın işğal edilmiş torpaqlarının dərhal azad olunmasını nəzərdə tutan dörd qətnaməsinə etinasızlıq göstərib.

Yalnız 2020-ci ilin sentyabrında Ermənistan tərəfindən silahlı təxribatdan sonra Azərbaycan silahlı əks-hücum əməliyyatları keçirib və 44 günlük Vətən müharibəsi nəticəsində Qələbə qazanıb, öz ərazilərini ermənilərin çoxillik işğalından azad edib.

2020-ci il noyabrın 10-da Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış üçtərəfli Bəyanat qəbul edilib. Həmin sənəddə başqa bəndlərlə bərabər, 4 nömrəli bənddə açıq-aşkar deyilir: "Rusiya Federasiyasının sülhməramlı kontingenti Ermənistan silahlı dəstələrinin Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərindən çıxarılmasına paralel olaraq regionda yerləşdirilir".

Bu il avqustun 3-də Azərbaycan Ordusu Qarabağda qanunsuz erməni silahlı dəstələrinin azərbaycanlı hərbi qulluqçunun həlak olması ilə nəticələnmiş təxribat-terror provokasiyasının qarşısını almaq üçün "Qisas" əməliyyatı keçirib.

Hörmətli Frans Adamoviç, bir suala cavab verin: erməni silahlı dəstələri Azərbaycanın əzəli torpağında nə edir? Nə üçün onlar indiyə qədər Azərbaycan ərazisindən çıxarılmayıb, kim onlara bu günə qədər bizim vətəndaşlarımızı atəşə tutmaq və öldürmək hüququ verib?

Siz deyirsiniz ki, bu, Azərbaycan və Türkiyə xüsusi xidmətlərinin provokasiyalarıdır. Bu, qərəzli yalandır! Hərbi zabit kimi sizə gözəl məlumdur ki, bu provokasiyalar yalnız Azərbaycan ilə Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyasını, sülh müqaviləsi imzalanmasını uzadan erməni tərəfinə lazımdır.

Azərbaycan azad edilmiş ərazilərdə praktiki olaraq dərhal bərpa işlərinə başlayıb, Ermənistanı sülh müqaviləsini imzalamağa və regionda nəqliyyat kommunikasiyalarının açılması üzərində birgə işləməyə çağırıb.

Siz Azərbaycanın öz ərazisində təhlükəsizliyi təmin etmək, sosial obyektlər tikintisini nizamlamaq, dağıdılmış mədəniyyət abidələrini bərpa etmək istəyini Rusiya ilə Ermənistan arasında xüsusi münasibətləri pozmaq məqsədilə eskalasiya və provokasiya adlandırırsınız?!

Siz vurğulamısınız ki, Rusiyanın sülhməramlı fəaliyyətində onun mövqeyinə etinasızlıq göstərilir. Bu nə vaxt və kim tərəfindən olub? Rusiya ilə Azərbaycan arasında Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə 2022-ci il 22 fevral tarixli Bəyannamədə bir daha vurğulanıb ki, iki dövlət "öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, qarşılıqlı hörmət, iki ölkənin müstəqilliyi, dövlət suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı əsasında qurur".

Cənab Klintseviç, siz deyirsiniz: "Rusiya Ermənistanı tək qoymayacaq", "Rusiya Ermənistanı müdafiə edəcək". Kimdən? Məgər Ermənistana kimsə hücum edib? Məgər iyrənc provokasiyalar Ermənistan torpağında baş verir? Siz bütün Rusiya adından danışarkən bunları bilməlisiniz!

Ermənistana sevgi və sədaqətinizi bəyan etməklə, "Ermənistanla xüsusi münasibətləri" qeyd etməklə, rusların Ermənistandan qovulmasını, Ermənistanda təhsilin rus dilində olduğu məktəblərin olmamasını, nasizmin və faşizmin əlaltısı Qaregin Njdeyə heykəl qoyulmasını, İrəvanda Rusiyanı təhqir edən, Rusiya bayraqlarını yandıran ermənilərin izdihamlarını unudursunuz. Bəs sizin ardıcıllığınız və prinsipiallığınız harada qaldı?!

Azərbaycan multikultural ölkədir, burada Azərbaycan vətəndaşları olan 120 mindən çox rus yaşayır. Rus dili inkişaf edir, təhsilin rus dilində olduğu bütün məktəblər qalıb (onların sayı 344-dür), ali məktəblərdə təhsilin rus dilində olduğu fakültələrdə 18 mindən çox tələbə oxuyur.

Qarabağ müharibəsi illərində rus gənclərin çoxu könüllü olaraq Azərbaycan Silahlı Qüvvələri sıralarına daxil olub və döyüşlərdə respublikanın ərazi bütövlüyünü qoruyub. Onların arasında orden və medallarla təltif olunanlar da, Azərbaycanın Milli qəhrəmanları da var. Ermənistanda belə ruslar varmı?! Ümumiyyətlə, bu monomilli dövlətdə ruslar qalıbmı?!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə bəyan edib ki, Xankəndi şəhərində və Qarabağ ərazisində yaşayan ermənilər öz evlərində qalacaq, onlar bizim respublikanın vətəndaşlarıdır və onların hüquqları etibarlı şəkildə qorunacaq.

Bəs Azərbaycan ərazisində törədilən provokasiyalar kimə sərfəlidir?

Azərbaycan ərazilərinin işğalı 30 il davam edib: müxtəlif millətlərdən olan on minlərlə gənc vəhşicəsinə qətlə yetirilib, yüz minlərlə insan qaçqın düşüb, Azərbaycanın şəhər və kəndləri yerləyeksan edilib, milli sərvətləri talanıb. Bu gün erməni faşizmi haqqında uzun müddət və əsaslı şəkildə danışmaq olar.

Ümidvarıq ki, siz haçansa zabit şərəfini xatırlayacaq və təkcə "zavallı və bədbəxt Ermənistan" haqqında deyil, həm də sülhsevər, qəhrəman, əməksevər və beynəlmiləlçi Azərbaycan haqqında danışacaqsınız".

# Avropa İttifaqı ölkələri "fövqəladə plan"ı təsdiqlədilər

### Məqsəd Rusiyadan azalan qaz tədarükünün tam dayandırılması zamanı yarana biləcək riskləri azaltmaqdır

Avropa İttifaqı qaza qənaətlə bağlı fövqəladə planı təsdiqləsə də, təşkilata üzv dövlətlər Rusiya Federasiyasından tədarükün dayandırılması halında özlərini qorumaq üçün milli səviyyədə tədbirlər görürlər.




Fövqəladə plan bütün Aİ-yə üzv dövlətlərin bu il avqustun əvvəlindən gələn ilin martına qədər qazdan istifadəni 15 faiz azaltmağı nəzərdə tutur. Planın məqsədi Rusiyadan son vaxtlar kəskin şəkildə azalan qaz tədarükünün tam dayandırılması zamanı yarana biləcək risklərə hazır olmaqdır.

### Yunanıstan alman təqaüdçüləri dəvət edir

Aİ-də hər kəsdən daha çox Rusiya qazının tədarükündən asılı olan Almaniya üçün enerji qənaətinə dair ən yaxşı məsləhət Afinadan gəlib. Yunanıstanın turizm naziri Vasilis Kikilias yeni kommunal ödənişlərdən narahat olan alman təqaüdçülərin bir çoxuna qış mövsümündə Krit adasına getməyi təklif edib.

Həmçinin başqa təklif də səsləndirilib: "Niyə də onlar birdəfəlik Yunanıstanda məskunlaşmasınlar? Günəş, dəniz, çimərliklər və yunan mətbəxi - bütün bunlar Almaniyanın rütubətli və sönük qışında isitmə və isti su üçün külli miqdarda pul xərcləmək əvəzinə..."

Kikilias tərəfindən səsləndirilən təklifin arxa planı kifayət qədər ciddidir. Afina qaz istehlakını könüllü olaraq 15 faiz azaltmaq üçün Aİ-nin fövqəladə planını həyata keçirməyə Berlindən qat-qat yaxşı hazırdır. Evbeya istisna olmaqla, yunan adalarında mərkəzləşdirilmiş qaz təchizatı yoxdur, evlər dizel yanacağı və ya elektrik enerjisi ilə qızdırılır. Daha soyuq olarsa, bir çox mənzillərdə sobalar var.

### İspaniya Aİ-nin qaza qənaət planına qarşı çıxır

İspaniya Portuqaliya və Yunanıstan kimi əvvəlcə Avropa Komissiyasının qaza qənaət planına qarşı çıxıb. İspaniyanın energetika naziri Tereza Ribera qitənin cənubundan Aİ dövlətlərinin buna münasibətinə təkəbbürlə cavab verib: "Bir çox başqa ölkələrdən fərqli olaraq ispanlar enerji təchizatı məsələsində öz imkanlarından kənara çıxmırlar".

Əslində, Madridin Almaniyanın ünvanına belə bir atmacalı eyham söyləməyə haqqı çatır. Çünki son illərdə İspaniya hökuməti ABŞ və dünyanın digər regionlarından mayeləşdirilmiş təbii qaz (MTG) daşıyan iri tankerləri qəbul etmək üçün lazım olan infrastruktura böyük sərmayə qoyub.

Avropanın ən böyük MTG-nin yenidən qazlaşdırılması zavodu Barselonadadır və hazırda Aİ-də olan bütün belə zavodların üçdəbiri isə İspaniyada yerləşir. Bununla belə, Ribera fövqəladə vəziyyətdə İspaniyanın könüllü olaraq istehlakı cəmi 7-8 faiz azaldacağını açıqlayıb.

### Fransada "ümumi səfərbərlik"

Fransanın dörd MTG terminalı var. İyunun ortalarından etibarən Fransa artıq Rusiya Federasiyasından birbaşa boru kəməri qazı almır, eyni zamanda dünyada rəsmi Moskvanın mayeləşdirilmiş qazının ən böyük idxalçısına çevrilib. Bir ay əvvəl üç ən böyük yerli elektrik tədarükçüsü şirkətinin rəhbərləri əhaliyə müraciət edərək ona qənaət olunması xahişi ilə müraciət etmişdilər. Paris həmçinin enerji təchizatında "narıncı səviyyə" adlanan həddi elan edib ki, bu da gərgin vəziyyətin mövcudluğu deməkdir.

Prezident Emmanuel Makron isə daha da irəli gedərək 14 iyul milli bayram günü Fransanın enerjiyə qənaət planını "ümumi səfərbərlik" adlandırıb.

Fransa hakimiyyəti öz enerji təchizatını daha da şaxələndirməyi, bərpaolunan enerji mənbələrindən (BEM) istifadəni sürətli artırmağı və qaz anbarlarını doldurmağı planlaşdırır.

### Belçika ƏDV-nin azaldılması ilə enerji qənaətini təşviq edir

Belçika enerjiyə qənaət edən həmvətənlərinə və şirkətlərinə maliyyə stimulları verir. Mart ayından etibarən onlar tikinti materialları və binaların sökülməsi və təmiri, eləcə də günəş enerjisi ilə işləyən günəş panellərinin, istilik nasoslarının və suqızdırıcı qazanlarının quraşdırılması kimi xidmətlərə görə ƏDV dərəcələrini 21 faizdən 6 faizə endiriblər.

Rusiya Federasiyasından idxal edilən qazın payı Belçikada istehlak edilən bu növ yanacağın cəmi 6 faizini təşkil edir, Zebrugge limanında MTG qəbul etmək üçün nəhəng terminal tikilib. Buna baxmayaraq, Belçika hakimiyyəti Tihange 3 və Doel 4 nüvə reaktorlarını 2025-ci ildə bağlamaq planından vaz keçərək, onları daha on il fəaliyyətdə saxlamaq qərarına gəlib.

### Hollandiya və Avstriya kömürə qayıdırlar

Hollandiya da Almaniya kimi cəmi bir neçə ay əvvəl sarsılmaz görünən prinsiplərdən uzaqlaşır: iqlim böhranı səbəbindən gücü üçdə bir azaldılan kömürlə işləyən elektrik stansiyaları indi 2024-cü ilə qədər tam gücü ilə işləyəcəkdir.

Avstriyada isə qapalı Verbund Elektrik Stansiyası yenidən kömürlə işləyəcək, qazla işləyən elektrik stansiyaları isə maye yanacağa keçirilə bilər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# V İslam Həmrəyliyi Oyunları



# Etimadı doğruldurlar

## Güləşçilərimiz ötən günü 1 qızıl, 2 gümüş və 4 bürünc medalla başa vurdular





*Əvvəli 1-ci səh.*

70 kq çəki dərəcəsində çıxış edən pəhləvanımız Əsgər Məmmədəliyev isə bürünc medal uğrunda güləşdə Tacikistan idmançısı Cəmşid Şərifovla qarşılaşıb. Rəqibinə qalib gələn idmançımız bürünc medala sahib olub.

Komandamızın digər üzvü Hacımurad Ömərov (79 kq) yarımfinal uğrunda döyüşdə özbəkistanlı Arslan Budajapovu sonuncu xal prinsipinə əsasən (4:4) məğlub edərək növbəti mərhələyə adlayıb. Sonrakı mərhələdə uduzan güləşçimiz bürünc medal uğrunda Özbəkistan güləşçisi Mehir Koşkinbayevlə qarşılaşıb. Güləşdən qalib ayrılan təmsilçimiz bürünc medala layiq görülüb.

Osman Nurmaqomedov (92 kq) dörddəbir finalda tunisli İmed Kaddidiyə 10:0 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib. Daha sonra uduzan təmsilçimiz 3-cü yer uğrunda qazaxıstanlı Abdimanap Baigenjeyevlə üz-üzə gəlib. Rəqibini döşəyə çıxmağa peşman edən Osman bürünc medala layiq görülüb.

Qadınların mübarizəsində 53 kq çəki dərəcəsində mübarizəyə qoşulan Leyla Qurbanova İndoneziya təmsilçisi Çandra Marimaraya "tuşe" ilə qalib gəlib. Finala gedən yolda təmsilçimiz türkiyəli Rahime Arifəyə (10:0) tam üstünlüklə qalib gəlib. Həlledici mərhələdə rəqib özbəkistanlı Aktenqe Keunimjayeva olub. Görüşdən qalib ayrılan Leyla Qurbanova ardıcıl ikinci dəfə İslam Həmrəyliyi Oyunlarının qalibi olub.

73 kq çəkidə yarışan Gözəl Zutova tunisli Nour Jeljeliyə (16:5) və kamerunlu Ngiri Nyehə (6:0) qalib gələrək İslam Həmrəyliyi Oyunlarının finalına yüksəlib. Həlledici mərhələdə rəqib türkiyəli Buse Çavuşoğlu olub. Döşəkdən məğlub ayrılan idmançımız İslam Həmrəylik Oyunlarını gümüş medalla başa vurub.

Tatyana Omelçenko (62 kq) isə özbəkistanlı Nabira Esenbayevanı 12:2 hesabı ilə məğlub edib. Sonrakı görüşlərdə uduzan təmsilçimiz bürünc medal uğrunda indoneziyalı Herlina Xarişma Tantri ilə qarşılaşıb. Rəqibinə böyük üstünlüklə qalib gələn xanım güləşçimiz bürünc medalla kifayətlənib.

Beləliklə, güləşçilərimiz günü 7 medalla (1 qızıl, 2 gümüş və 4 bürünc) başa vurublar. Ümumilikdə isə, güləşçilərimizin hesabında 13 medal (4 qızıl, 4 gümüş və 5 bürünc) var.

# Minayə Əkbərova "gümüş"lə kifayətləndi

Türkiyədə təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında tamaşaçılar bir-birindən maraqlı idman mübarizələrinin şahidi olurlar. Ən diqqət ediləsi məqamın isə idmançılarımızın parlaq qələbələri ilə xalqımızı sevindirməsidir.



İdman müasir dövrdə ölkəni tanıtmağın, populyarlaşdırmağın ən mühüm vasitələrindəndir. Azərbaycan dövlətinin üçrəngli bayrağını ucaldan, himnini səsləndirən hər bir idmançı da dövlətimizin, xalqımızın qürurudur.

Konyada start götürən islamiadada idmançılarımız medal sayını artırmaqda davam edirlər. Azarkeşlərin böyük maraq göstərdiyi idman növlərindən biri də taekvondodur. İlk iki yarış günündə taekvondoçularımızdan Fəridə Əzizova (67 kq) qızıl, Cavad Ağayev (68 kq) gümüş, Həşim Məhəmmədov (58 kq) və Patimat Abakarova (49 kq) bürünc medal qazanmışdılar.

Dünən isə daha üç idmançımız mübarizəyə qoşulub.Təmsilçimiz Minayə Əkbərova (46 kq) yarımfinalda özbəkistanlı rəqibini məğlub etməklə finala yüksəlib. İdmançımız həlledici qarşılaşmada Mərakeş təmsilçisi Sahib Soukaniaya uduzaraq islamiadanı gümüş medalla başa vurub.

# Nazilə İsmayılovanın "bürünc"ü





Azərbaycan ağırlıqqaldıranı Nazilə İsmayılova Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanıb. 24 yaşlı atlet iki hərəkətin cəmində 121 kq nəticə göstərib. O, birdən 54 kq, təkanla isə 67 kq ağırlığın öhdəsindən gəlib.

İndoneziyalı Hariron Siti Nafisatul 159 kq (71 + 88) nəticə ilə qızıl, türkiyəli Cansu Bektaş 151 kq (65 + 86) gümüş medala yiyələnib.

Mətbuata açıqlamasında Nazilə İsmayılova deyib ki, islamiadada bürünc medal qazandığına görə özünü çox xoşbəxt hiss edir: "Təəssüratlarım çox yaxşıdır. Cəmi iki ildir ki, ağırlıqqaldırma ilə məşğul oluram. İlk beynəlxalq yarışım olmasına baxmayaraq, çox yaxşı çıxış etdim. Ölkəmin bayrağını qaldırdığım və medalsız qalmadığım üçün çox xoşbəxtəm. Ən azından dövlətimə xeyrim dəydi".

24 yaşlı idmançı startda həyəcanın olmasını və bu səbəbdən ilk yanaşmasının uğursuz olduğunu bildirib: "Birinci yanaşmam zamanı həyəcanım vardı. Amma məşqçinin sayəsində bu həyəcanın öhdəsindən gələ bildim. Çətinlik çəkmədim. Yarış qardaş ölkədə keçirildiyindən özümü evdəki kimi hiss etdim. Bundan sonra qarşıdan Avropa və dünya çempionatları gəlir. Oradan çempion olaraq qayıtmaq ən böyük arzularımdan biridir".

# Bir gündə üç medal




**İslamiadada uğurla çıxış edən kişi idman gimnastlarımız ölkəmizə qızıl və gümüş medalları qazandıraraq uğur estafetini davam etdiriblər. Dünən kişi idman gimnastikası üzrə Azərbaycan yığma komandasının üzvləri ayrı-ayrı alətlər üzrə final mərhələsində mübarizəyə qoşulublar.**

**Azərbaycanın idman gimnastı İvan Tixonov Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəylik Oyunlarında qızıl medal qazanıb. 26 yaşlı idmançımız dayaqlı tullanma üzrə hərəkətlərin icrasında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Daha sonra idmançımız turnikdə hərəkətlərdə bürünc medal qazanıb. Təmsilçilərimizdən Nikita Simonov halqalar ilə hərəkətlərin icrasında gümüş medal qazanıb.**

**Qeyd edək ki, Tixonov ötən gün çoxnövçülükdə gümüş medal əldə edib.**

**Bununla da kişi idman gimnastlarımız "Konya-2021"i 4 medalla başa vurublar.**

# Daha bir atletimiz medal qazanıb




Azərbaycan atleti Yekaterina Sariyeva Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanıb.

İdmançımız üçtəkanla tullanmada 14,12 metr nəticə ilə 3-cü yeri tutub.

Qeyd edək ki, daha əvvəl Azərbaycanın digər atleti Aleksis Kopello bu növdə gümüş medal əldə etmişdi.

# «Azərbaycan günü» keçirilib

Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunları zamanı "Azərbaycan günü" keçirilib.



Atletlər Kəndində təşkil olunan tədbirdə Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, Türkiyənin gənclik və idman naziri Mehmet Kasapoğlu, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, baş katib Azər Əliyev, gənclər və idman nazirinin müavini Mariana Vasileva, Milli Olimpiya komitələrinin nümayəndələri, idmançılar və könüllülər iştirak ediblər.

MOK-un baş katibi Azər Əliyev sonuncu İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Azərbaycanın paytaxtı Bakıda keçirildiyini xatırladıb. O, qeyd edib ki, koronavirusla əlaqədar uzunmüddətli fasilədən sonra, nəhayət, bu gün qardaş Türkiyədə, tarixi Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarına şahidlik edirik. Azərbaycanın oyunlara 200-dən artıq idmançıdan ibarət böyük heyətlə qatıldığını söyləyən A.Əliyev deyib: "İdman heyətimizdə Olimpiya çempionları, bir neçə qat dünya çempionları, eləcə də gənc idmançılar var və onlar öz güclərini dünyaya nümayiş etdirirlər. Mən həmçinin bu islamiadanın yüksək səviyyədə təşkil olunmasına və burada bizə göstərilən qonaqpərvərliyə görə qardaş Türkiyədən olan təşkilatçılara öz dərin minnətdarlığını bildirirəm".

Kasapoğlu isə çıxışında Azərbaycanın IV İslam Həmrəyliyi Oyunlarına çox uğurla evsahibliyi etdiyini xatırladıb. O, Türkiyənin də islamiadanı yüksək səviyyədə keçirmək üçün əlindən gələni etdiyini bildirib.

Tədbir bədii hissə ilə davam edib. Musiqili gecədə müğənni İsmayıl İsmayılzadənin ifaları, "Tərəkəmə" və "Cəngi", "Dərbəndi", "Naz eləmə", "Sarı gəlin" və "Tambourine" rəqsləri ifa olunub.

Sonda "Şuşa" musiqi qrupunun və Azərbaycan Dövlət Filarmoniyasının solisti Nurlanə Abdullazadənin ifaları ilə tədbirə yekun vurulub.



# Millimiz yarımfinalda

Qadın həndbolçulardan ibarət Azərbaycan milli komandası Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında növbəti qələbəsini qazanıb.

Yığmamız B qrupundakı sonuncu matçında İran seçməsi ilə qarşılaşıb və 26:17 hesabı ilə qələbə qazanıb.

Bu nəticədən sonra qrup qalibi olan millimiz yarımfinala vəsiqə qazanıb.

Qeyd edək ki, milli komanda qrupdakı ilk oyununda Kamerunla görüşməli idi. Lakin rəqib meydana çıxmadığından, Azərbaycan yığmasına texniki qələbə verilib. Yığma 2-ci qarşılaşmada isə Əfqanıstana qalib gəlib.

# Paraoxatanlarımız 3-cü yeri tutdular

Azərbaycan paraoxatanları Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında 2 bürünc medal qazanıblar. Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, Cahan Musayeva və Azadə Abdullayevadan ibarət komanda miks, Cahan Musayev və Əli Nəbeydən ibarət kollektiv isə komanda növündə 3-cü yeri tutublar.



Qeyd edək ki, islamiadada Azərbaycanı 8 paralimpiyaçı təmsil edir.



*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi – Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu "6" ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin 4 saylı binası üzrə 64, 5 saylı binası üzrə 53, 6 saylı binası üzrə 44, 9 saylı binası üzrə 44, 10 saylı binası üzrə 64, 11 saylı binası üzrə 54, 12 saylı binası üzrə 44, 14 saylı binası üzrə 21, 17 saylı binası üzrə 44, 18 saylı binası üzrə 44, 19 saylı binası üzrə 41, 20 saylı binası üzrə 8, 21 saylı binası üzrə 44, 22 saylı binası üzrə 39, 23 saylı binası üzrə 39, 24 saylı binası üzrə 24, 25 saylı binası üzrə 72 və 26 saylı binası üzrə 72 mənzilin, ümumilikdə 815 mənzilin satışı 15 sentyabr 2022-ci il tarixində saat 11:00-da başlayacaq və 22 sentyabr 2022-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 19 sentyabr 2022-ci il tarixində saat 11:00-da başlayacaq və 22 sentyabr 2022-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 815 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 29.11.2018-ci il tarixli 26396, 07.12.2018-ci il tarixli 26436, 15.02.2019-cu il tarixli 26721 nömrəli müsbət rəyləri mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 4 | 830,45 | 9 | 2 | 1 | 16 | 34,97 - 35,57 | 43,02 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18 | 31.03.2021 |
| | | | | 2 | 32 | 56,78 - 56,84 | 68,34 - 68,57 | | |
| | | | | 3 | 16 | 74,78 | 87,06 | | |
| 5 | 797,21 | 9 | 2 | 2 | 18 | 56,86 | 68,56 - 68,58 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18 | 31.03.2021 |
| | | | | 3 | 18 | 72,74 | 87,78 | | |
| | | | | 4 | 17 | 96,67 | 110,87 | | |
| 6 | 565,92 | 12 | 1 | 3 | 44 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18 | 31.03.2021 |
| 9 | 586,72 | 12 | 1 | 3 | 44 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "Merkuri-İnşaat" MMC ("Conco" MMC ilə konsorsium) / Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143 | 30.04.2021 |
| 10 | 832,9 | 9 | 2 | 1 | 16 | 35,46 - 35,57 | 43,02 | Kristal Abşeron / AZ0100 Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev pr.(Xırdalan), ev tikinti quraşdırma idarəsinin binası | 28.03.2021 |
| | | | | 2 | 32 | 56,67 - 56,84 | 68,34 - 68,57 | | |
| | | | | 3 | 16 | 74,52 - 74,78 | 87,06 | | |
| 11 | 765,4 | 9 | 2 | 2 | 18 | 56,56 - 56,86 | 68,56 - 68,58 | Kristal Abşeron / AZ0100 Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev pr.(Xırdalan), ev tikinti quraşdırma idarəsinin binası | 28.03.2021 |
| | | | | 3 | 18 | 72,53 - 72,74 | 87,78 | | |
| | | | | 4 | 18 | 96,10 - 96,63 | 110,87 | | |
| 12 | 586,72 | 12 | 1 | 3 | 44 | 75,88 - 76,73 | 89,54 - 90,96 | Kristal Abşeron / AZ0100 Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev pr.(Xırdalan), ev tikinti quraşdırma idarəsinin binası | 28.03.2021 |
| 14 | 797,21 | 9 | 2 | 2 | 10 | 56,64 - 59,6 | 68,56 - 68,58 | Kristal Abşeron / AZ0100 Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev pr.(Xırdalan), ev tikinti quraşdırma idarəsinin binası | 28.03.2021 |
| | | | | 3 | 8 | 72,55 - 72,74 | 87,78 | | |
| | | | | 4 | 3 | 96,10 - 96,6 | 110,87 | | |
| 17 | 565,92 | 12 | 1 | 3 | 44 | 75,58 - 76,79 | 89,54 - 90,96 | "HN Construction" MMC / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 13.12.2020 |
| 18 | 565,92 | 12 | 1 | 3 | 44 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "HN Construction" MMC / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 13.12.2020 |
| 19 | 586,72 | 12 | 1 | 3 | 41 | 75,58 - 75,74 | 89,54 - 90,96 | "HN Construction" MMC / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 13.12.2020 |

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 20 | 586,72 | 12 | 1 | 3 | 8 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "HN Construction" MMC / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 13.12.2020 |
| 21 | 565,92 | 12 | 1 | 3 | 44 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 02.02.2021 |
| 22 | 830,45 | 9 | 2 | 1 | 12 | 35,57 | 43,02 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 02.02.2021 |
| | | | | 2 | 23 | 56,78 - 56,84 | 68,34 - 68,57 | | |
| | | | | 3 | 4 | 74,78 | 87,06 | | |
| 23 | 797,21 | 9 | 2 | 2 | 18 | 56,86 | 68,56 - 68,58 | "Hünər-İnşaat" Firması / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 02.02.2021 |
| | | | | 3 | 17 | 72,72 - 72,74 | 87,78 | | |
| | | | | 4 | 4 | 96,60 | 110,87 | | |
| 24 | 565,92 | 12 | 1 | 3 | 24 | 75,88 - 76,94 | 89,54 - 90,96 | "Faktor Qrup-S" MMC / Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 189 | 31.03.2021 |
| 25 | 781,84 | 9 | 2 | studio | 18 | 34,97 - 35,57 | 43,10 | "Faktor Qrup-S" MMC / Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 189 | 31.03.2021 |
| | | | | 2 | 36 | 56,78 - 56,84 | 68,34 - 68,71 | | |
| | | | | 3 | 18 | 74,78 | 87,06 | | |
| 26 | 781,84 | 9 | 2 | studio | 18 | 34,97 - 35,57 | 43,10 | "Faktor Qrup-S" MMC / Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 189 | 31.03.2021 |
| | | | | 2 | 36 | 56,78 - 56,84 | 68,34 - 68,71 | | |
| | | | | 3 | 18 | 74,78 | 87,06 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

Studio tipli mənzillərin qiyməti – **33 222** manatdan,

1 otaqlı mənzillərin qiyməti – **33 222** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **53 732** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **68 904** manatdan,

4 otaqlı mənzillərin qiyməti – **91 295** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | *Studio tipli* | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | 143-146 manat | 143-146 manat | 231-244 manat | 296-314 manat | 393-395 manat |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| Studio tipli | 33 222 | 3 322 | **29 900** |
| 1 | 33 222 | 3 322 | **29 900** |
| 2 | 53 732 | 5 373 | **48 359** |
| 3 | 68 904 | 6 890 | **62 014** |
| 4 | 91 295 | 9 129 | **82 166** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsinin **www.yasamal2.mida.gov.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə güzəştli mənzil kalkulyatoru vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı Bakı, Sumqayıt və 1 saylı Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*


## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 16.08.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün müxtəlif alüminium keçid trapların satın alınması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2, AZ1003**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1047**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən elan edilmiş aşağıdakı kotirovka sorğuları Satınalmalar komissiyasının 09 avqust 2022-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir:

- ***Azərbaycan Respublikası Mərkəzi Bankının avtomatik telefon stansiyasının təkmilləşdirilməsi işlərinin satın alınması;***
- ***Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında quraşdırılmış elektrik avadanlıqlarına texniki xidmətin satın alınması;***
- ***Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan lift qurğularına texniki xidmətin satın alınması;***
- ***Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan lift qurğuları üçün zəruri ehtiyat hissələrinin satın alınması;***
- ***Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən UPS avadanlıqları üçün akkumulyatorların təchizatı və quraşdırılması işlərinin satın alınması.***

***Satınalmalar komissiyası***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az



BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*

*e-mail:*

secretary@azerbaijan-news.az

az.reklam@mail.ru

azerbaijan-news@mail.ru

www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,

Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,

Məsul katib - 539-43-23,

Məsul katib müavinləri - 539-44-91,

Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,

İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,

Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68

Humanitar siyasət şöbəsi - 538-56-60

İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,

Fotoillüstrasiya şöbəsi - 538-84-73,

Kompüter mərkəzi - 538-20-87,

Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6228

Sifariş 2214

Qiyməti 40 qəpik